

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Köç karvanları Laçına tələsir...



7

№ 230 (6913)

SƏS

15 dekabr 2023-cü il.
Qiymәti 60 qəpik

## "Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir"

2



*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib*

# Fransadan mediaya, söz azadlığına qarşı HÖRMƏTSİZLİK




6

## Əfv sərəncamının imzalanması gözlənilәndir?



12

## "Qalib Prezidentimizi bir daha prezident seçək"



5

## İki 32-dən böyükdür



11

## "Süni qidalar insanların genetikasını zədələyir"



16

## Ermənistanda da növbədənkənar seçkilər gözlənilir - SƏBƏBLƏR



15

# “Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir”



*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.***

Dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə töhfə verdiyi bildirildi. Söhbət zamanı əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev “Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# “Münasibətlərimiz tarixi yüksəliş mərhələsindədir”

## *Azərbaycanın və Türkiyənin XİN başçıları regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivlərini müzakirə ediblər*




***Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə rəsmi səfəri çərçivəsində Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəsmi açıqlamasında deyilir ki, nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.***

Geniştərkibli görüşdə iki ölkə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, bölgədəki cari vəziyyət, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə 2023-cü ildə Azərbaycanda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin, qardaş Türkiyədə isə Cümhuriyyətin 100 illik yubileyinin qeyd edilməsi fonunda iki ölkə arasında bütün səviyyələrdə təmaslarımızın daha intensiv, daha məhsuldar xarakter aldığı vurğulanıb.

Çoxşaxəli və zəngin Azərbaycan-Türkiyə strateji müttəfiqlik gündəliyinin cari vəziyyətindən məmnunluq ifadə edilib, siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, humanitar, təhsil, mədəniyyət və digər sahələr üzrə münasibətlərin tarixi yüksəliş mərhələsində olduğu bildirilərək, Şuşa Bəyannaməsinin bu xüsusda mühüm zəmin olduğu qeyd olunub.

Habelə beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı tərəfdaşlığın nümunəvi xarakter daşıdığı diqqətə çatdırılıb. Çoxtərəfli platformalarda, o cümlədən BMT və onun təsisatları, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Mərkəzi Asiya ölkələri ilə üçtərəfli və dördtərəfli formatlar çərçivəsində birgə tədbirlərin intensivliyinin artırılmasının, yeni çoxtərəfli təşəbbüslərin irəli sürülməsinin əhəmiyyətindən söz açılıb.

Nazirlər, həmçinin bölgəmizdə sabitliyin qorunmasında Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin vacib roluna toxunub, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə bu gün bölgədə tarixi məqamın yarandığını, dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınmasının və bu kimi təməl prinsiplərə hörmətlə yanaşılmasının bölgədəki davamlı sülh, sabitlik və firavanlığa aparan yeganə yol olduğunu bir daha bəyan ediblər.

Görüşdə nazir Ceyhun Bayramov həmkarını Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Ermənistanın 30 illik işğalı nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlarımızın geri qayıdış prosesi, habelə Azərbaycan Ermənistan arasında etimad quruculuğu istiqamətində atılan son addımlar barədə məlumatlandırıb. Nazir işğaldan azad edilmiş ərazilərdə fəaliyyətlərində Türkiyə tərəfinin aktiv iştirakının yüksək qiymətləndirildiyini vurğulayıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Daha sonra nazirlərin iştirakı ilə keçirilmiş mətbuat brifinqində görüşün nəticələrinə dair bəyanatlar səsləndirilib, jurnalistlərin sualları cavablandırılıb.



## Cenevrədə Fransa müstəmləkəçiliyinə qarşı dinc aksiya keçirilib

Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən Cenevrədə təşkil olunan “Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik” mövzusunda beynəlxalq konfransının iştirakçıları BMT-nin bu şəhərdəki ofisi dinc aksiya keçiriblər. Aksiyanın Fransanın keçmiş və indiki müstəmləkələrindən olan iştirakçıları beynəlxalq ictimaiyyətin diqqətini rəsmi Parisin Fransanın müstəmləkə siyasətinə cəlb ediblər.

Etirazçılar əllərində “Pıçıldayan dəyişiklik: müstəmləkəyə qon qoyun, humanist olun, sülhü təmin edin!”, “Sükutla tələb edirik: Hüquqlar, Sülh və Təhlükəsizlik naminə müstəmləkəyə son!”, “Səssiz səslər, gurultulu dəyişiklik: Sülh və hüquqlar naminə müstəmləkəyə son!”, “Dekolonizasiya, sülh və insan ləyaqəti uğrunda səssiz yürüş!”, “Ədaləti pıçıldayaraq, Sülh qışqıraraq: Hamı üçün müstəmləkəyə son qoyaq!”, “Hər kəsin azadlıqda yaşamaq hüququ var, niyə də bizim də olmasın?!” yazılmış plakatlarla BMT binasının qarşısına toplaşıblar. Onlar beynəlxalq ictimaiyyəti onları dəstəkləməyə çağırıb, müstəmləkə ölkələrini kolonializmə son qoymağa səsləyiblər. Onlar Fransa müstəmləkəçiliyinə son qoymaq uğrunda apardıqları mübarizələrini qətiyyətlə sona qədər davam etdirəcəklərini bildiriblər.






# Bu gün onlardan danışaq...

***Təqvimimizin 14 dekabr günü onların günüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 dekabr 2015-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin əsasında yaradılmış ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən iki qurumun- Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti əməkdaşlarının günüdür. Ötən 8 ildə ölkənin təhlükəsizliyini göz bəbəyi kimi qoruyan, gecə-gündüz, hər dəqiqə, hər saniyə çiyinlərində böyük məsuliyyəti daşıyan, fəaliyyətləri ilə qürur duyduğumuz Vətən övladlarından və vəzifələrini həyata keçirdikləri qurumlardan söhbət açaq.***

## Təhlükəsizliyə təminat

Ölkə o zaman möhkəm əsaslara dayanır, o zaman güclü, xalq üçün təhlükəsiz ünvana çevrilir ki, o, həm daxildən, həm də xaricdən qorunur. Dövlətə qarşı hər hansı bir təhdidin, planın qarşısı vaxtında alınırsa, bu, hər dəfə dövlətin, dövlətçiliyin, həm də xalqın üzərindən təhlükənin sovuşması deməkdir. Bu, hər dəfə yeni bir qələbədir.

Elə bütün bunlara görə idi ki, ölkəmizdə ilk dəfə 1918-ci ildə müstəqillik əldə edəndən sonra- 28 mart 1919-cu ildə ilk milli təhlükəsizlik orqanı yaradılmışdı. Və Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə nazirlik tərkibində kəşfiyyat və əks-kəşfiyyat bölməsi təşkil edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi 23 ay ərzində dövlət quruculuğu sahəsində xeyli iş görülmüşdü. Xüsusilə Milli Ordunun təşkili diqqətdə saxlanılmış, bu prosesdə general Səməd bəy Mehmandarov, general Əli Ağa Şıxlinski və general Məmməd bəy Sulkeviç xüsusi rol oynamışlar. Həmin sərkərdələrin rəhbərliyi ilə ordu quruculuğu işi 1920-ci ilin yanvarında artıq başa çatdırılmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizliyinin təmin edilməsi missiyasını da ilk zamanlar ordu öz üzərinə götürmüş və bölmə (Hərbi Nazirliyin Baş Qərargahının general-kvartirmeystr şöbəsinin kəşfiyyat və əks-kəşfiyyat bölməsi) halında bu işin öhdəsindən bacarıqla gələ bilmişdi. Beləliklə, Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğundan, Milli Təhlükəsizlik Nazirliyinin də bir əsrdən artıq yaşı var.

Sovet Rusiyasının Azərbaycanı ilhaq etməsi ilə Xalq Cümhuriyyətinin təşkil etdiyi bu kimi işlər də yarımçıq qalmış, ölkəmiz 70 illik bir əsarətə sövq edilmişdir. Həmin 70 ildə isə haqqında danışdığımız qurum tamamilə başqa istiqamətdə fəaliyyət göstərmişdir. Sovet dövründə qurum əvvəlcə Fövqəladə Komissiya ("ÇK") adlanıb, bir müddət Daxili İşlər Xalq Komissarlığının tərkibində fəaliyyət göstərib, sonra Dövlət Təhlükəsizlik Komitəsi təşkil olunub.

## DTK-da ilk azərbaycanlı

Bu qurum hər bir azərbaycanlı üçün həm də ona görə doğmadır ki, 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş Heydər Əliyev 1944-cü ildən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, 1950-ci ildə Leninqradda Ali çekist məktəbini əla qiymətlərlə başa vurduqdan sonra dövlət təhlükəsizliyi orqanlarının mərkəzi aparatında bölmə rəisi vəzifəsinə təyin edilmişdir. 1953-cü ildə isə əks-kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə irəli çəkilmiş və bu vəzifədə 10 il səmərəli fəaliyyətindən sonra, 1964-cü ildə DTK sədrinin birinci müavini, 1967-ci ildə isə DTK-nın sədri təyin edilmişdir. Beləliklə, xalqımızın Ümummilli Lideri Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarında uzun illər qüsursuz, özünəməxsus, peşəkar, məsuliyyətli və məhsuldar fəaliyyət göstərən ilk azərbaycanlı olub.

Azərbaycana rəhbərliyinin hər iki dövründə müşahidə etdiyimiz nüanslar Ulu Öndərin DTK-da çalışdığı illərdə də eynilə olmuşdur. Ölkədə təhlükəsizliyin təminatında Azərbaycanın milli maraqlarının ön plana çəkilməsi, milli kadrların rəhbər vəzifələrə təyinatı, gənc işçilərin xüsusi ali təhsil almasına şərait yaradılması Onun prinsipi olmuşdur. Sonralar bunu digər sahələrə də tətbiqində, gənclərin xaricdə təhsil almağa, gənc kadrların ixtisasartırma kurslarına göndərilməsində gördük.

Azərbaycan Respublikası 1991-ci ilin oktyabr ayında özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra Dövlət Təhlükəsizlik Komitəsinin maddi-texniki və kadr bazası əsasında 1991-ci il noyabr ayının 1-dən Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi təsis edilmişdi. Lakin 1990-1993-cü illərdə ölkədə xaos, anarxiya hökm sürürdü və dövləti idarə edən səriştəsiz rəhbərliyin kadr siyasəti o qədər səhv idi ki, bütün sahələrdə bir durğunluq hiss olunurdu. Yəni həmin illər ölkədə baş verən bütün proseslər onu göstərirdi ki, dövlət idarəçiliyində böyük bir boşluq var.

Ulu Öndər Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra isə bütün sahələr kimi, Milli Təhlükəsizlik Nazirliyinin də fəaliyyətində böyük dəyişiklik oldu. Çünki Heydər Əliyevin bu sahədə 25 illik təcrübəsi var idi və bu təcrübə də ölkədə təhlükəsizlik orqanlarının fəaliyyətinin müasir dövrün çağırışlarına uyğun qurulmasına zəmin yaradırdı. Beləliklə, 1993-cü ildən sonra Milli Təhlükəsizlik Nazirliyi Prezident Heydər Əliyevin yeni konsepsiyası əsasında quruldu, 1997-ci il 23 mart tarixli Fərman ilə 28 mart – Milli təhlükəsizlik orqanları işçilərinin peşə bayramı günü elan olundu. Ulu Öndərimiz müstəqil Azərbaycana rəhbərlik edəndə də ölkəmizin təhlükəsizlik orqanları üçün milli kadrların hazırlanması məsələsinə xüsusi diqqətlə yanaşaraq 1998-ci il dekabrın 1-də Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması barədə Sərəncam imzaladı.

## Təhlükəsiz dövlət naminə

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanın gələcəyi üçün hazırladığı milli inkişaf strategiyası sonrakı mərhələdə dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Elə fəaliyyətindən 8 il ötməkdə olan Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin yaradılması da dövlətin təhlükəsizliyinin təmin olunması, onun həm daxildən, həm də xaricdən qorunması, müasir dövrün tələblərinə cavab verməsi nöqteyi-nəzərindən böyük əhəmiyyətə malikdir.

DTX-nın fəaliyyətinin hüquqi əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyası Ulu Öndərin təkmil şəkildə ortaya qoyduğu ümumi hüquq toplusudursa, "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Dövlət sirri haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunları və digər qanunvericilik aktları müstəqillik illərində, xüsusilə son 20 ildə bu sahənin inkişafını müəyyənləşdirən əhəmiyyətli dövlət sənədləridir.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Əsasnaməsi, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, fəaliyyətə aid qanunvericiliyə əsasən qəbul olunmuş mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının qanunları çərçivəsində Azərbaycan Respublikası tərəfindən bağlanmış beynəlxalq müqavilələrin hər biri insan və vətəndaş hüquq və azadlıqlarına riayət, humanizm, dövlət və cəmiyyət qarşısında cavabdehlik prinsiplərinə əməl olunması ilə bu qurumun fəaliyyətini əsaslandırır.

DTX ilə eyni gündə fəaliyyətə başlayan Xarici Kəşfiyyat Xidməti müstəqil Azərbaycanın tarixində bir ilk olmaqla, eyni zamanda müasir dövrün tələbləri baxımından yaradılması zəruri olan bir qurum idi. Elə yeni dövrün yeni tələblərini nəzərə alan ölkə başçısı dövlətimizin daha möhkəm əsaslarla qorunmasında, təhlükəsizliyinin təmin olunmasında böyük əhəmiyyətə malik bu qurumun yaradılmasına göstəriş vermişdir.

Fəaliyyəti əsasən xarici dövlətlərin ərazisində, onların xüsusi xidmət orqanlarında, siyasi dairələrində dövlətin təhlükəsizliyini təmin etmək istiqamətində əməliyyat tədbirləri həyata keçirmək olan Xarici Kəşfiyyat Xidmətinin əsas məqsədi dövlətin təhlükəsizliyi üçün təhdid ola biləcək bu və ya digər addımların dövlətin ərazisindən kənarda, onların planlaşdırıldığı, hazırlandığı yerlərdə qarşısını almaqdır.

Bu quruma tabe olan ən gizli xüsusi bölmə "Yarasa" Xüsusi Təyinatlı Dəstəsinin hərbi qulluqçuları 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Qubadlı şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə düşmənlə mübarizə aparmışlar. Əsas fəaliyyəti Ermənistan Ordusunun arxa cəbhəsində olan bölmə ilə ilk dəfə Qarabağ Zəfərindən sonra dekabrın 10-da Bakıda keçirilən Zəfər Paradında tanış olduq. Və "Yarasa" Xüsusi Təyinatlı Dəstəsinin parad zamanı meydandan səf-səf keçməsi ilə qürur duyduq. Bu Vətən övladları qəhrəmanlığı, vətənpərvərliyi, öz vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirmələri ilə hər bir gəncə nümunədirlər. Bu gün Azərbaycanda onların yolu ilə getmək arzusunda olan minlərlə gənc var.

## 8 il əvvəl, 14 dekabr

Beləliklə, 8 il əvvəl dekabr ayının 14-də yaradılan Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti müstəqil dövlətimizin ərazi bütövlüyünün, təhlükəsizliyinin, vətəndaşların hüquq və azadlıqlarının təminatçısı olan qurumlardır.

Bu gün Azərbaycan konstitusiya quruluşunu və ərazi bütövlüyünü tamamilə bərpa edən, 30 illik işğala son qoyan, düşməni Vətən torpaqlarından qovmaqla ləyaqət və şərəfini xilas edən bir dövlətdir. Buna isə illərin zəhməti, həyata keçirilən böyükmiqyaslı işlərlə nail olmuşuq.

* * *

Bəlkə də çoxlarımıza elə gəlir ki, əmin-amanlıq, sabitlik, torpaqlarımn işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası ardıcıl, öz-özünə həyata keçən proseslərdir. Xeyr, elə deyil. Bu Vətənin gecə-gündüz müdafiəsində dayananlar var, onu göz bəbəyi kimi qoruyanlar var. Bu Vətən üçün həm daxildən, həm xaricdən yarana biləcək hər hansı təhlükənin qarşısını alanlar var. Biz evlərimizdə rahat yatarkən gözünə yuxu getməyənlər var. Bizim heç ağlımıza gələ bilməyən bir formada Vətəni və bizi, bizim hüquqlarımızı qoruyanlar var. Onlardan ikisi- Dövlət Təhlükəsizlik Xidməti və Xarici Kəşfiyyat Xidməti haqqında danışdıq. Yaradılmasının 8 illiyi münasibətilə hər iki qurumu təbrik edir, əməkdaşlarının hər birini təbrik edir, fəaliyyətlərində uğur arzulayırıq. Biz dövlətimizin təhlükəsizliyi keşiyində duranlarla qürur duyuruq.

***Mətanət Məmmədova***

# Əvvəlki kimi...



## *Ermənistanla Azərbaycan arasında başladılan sülh prosesi keçmiş zamanlara dönüş üçün kifayət edəcəkmi?*

***Bakı və İrəvanın tezliklə sülhə nail olmağa hazır olduqları barədə birgə bəyanatı bölgədə gedən prosesləri izləyən dünya gücləri tərəfindən də yüksək qiymətləndirilir. Bu jest artıq regionun əsas oyunçuları - Rusiya, ABŞ, Avropa İttifaqı və Türkiyə tərəfindən bəyənilib. Ekspertlər müqavilənin tezliklə imzalanacağını istisna etmirlər. Amma Azərbaycanın və Ermənistanın kimin ərazisində sülhə qərar verəcəyi hələ də bəlli deyil.***

"Moskva Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və Ermənistan Respublikasının Baş Naziri Aparatının iki ölkə arasında münasibətləri normallaşdırmaq və sülh müqaviləsi bağlamaq niyyətini təsdiqləyən birgə bəyanatını məmnunluqla qəbul edib. Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin rəhbəri Mariya Zaxarova dekabrın 8-də Bakı və İrəvanın sülhə doğru hərəkatı sürətləndirmək niyyətinə açıq şəkildə cavab verib: "Biz bundan sonra da nəqliyyat kommunikasiyalarının açılması, sərhədin delimitasiyası və sülh müqaviləsinin bağlanması üçün hər cür yardım göstərməyə hazırıq".

Onun şərh etdiyi bəyanat dekabrın 7-də axşam saatlarında açıqlanıb. Bu, görünməmiş bir şeydir. Birincisi, bu, iki ölkənin hakimiyyət orqanlarının birgə ikitərəfli bəyanatıdır - hələ yüksək vəzifəli şəxslər deyil, onların administrasiyaları, lakin səviyyə hələ də yüksəkdir. İkincisi, 30 ildən artıqdır ki, ixtilafda olan qonşular arasında münasibətlərə xas olmayan ruhda saxlanılır. Bəyanatda tərəflər təkcə "bölgədə çoxdan gözlənilən sülhə nail olmaq üçün tarixi fürsət olduğunu" bildirməklə yanaşı, "münasibətləri normallaşdırmaq və suverenlik və ərazi prinsiplərinə hörmət əsasında sülh müqaviləsi bağlamaq niyyətlərini təsdiqləyəcəklər". Bu, həm də bir-birlərinə doğru əhəmiyyətli addımlar mübadiləsidir. Bakı 32 erməni, İrəvan isə iki azərbaycanlı hərbçini azad etmək qərarına gəlib.

Bundan əlavə, Ermənistan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi etmək üçün Azərbaycanın müraciətini dəstəklədiyini bildirib və Bakının xeyrinə öz namizədliyini geri götürüb. Azərbaycan buna cavab olaraq Ermənistanın Şərqi Avropa COP-un büro üzvlüyünə namizədliyini dəstəkləyib. Müqavilələrin ikitərəfli olduğu görünür. Bununla belə, onlar ABŞ dövlət katibinin köməkçisi Ceyms O'Brayen tərəfindən bölgəyə səfərindən sonra açıqlanıb. Dekabrın 6-da diplomat Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. Azərbaycan lideri daha sonra vurğulayıb ki, regionda "sülhün bərqərar olması üçün tarixi imkanlar yaranıb" və "ABŞ yeni reallıqları nəzərə alaraq, bu prosesə öz töhfəsini verə bilər". Görünür, Vaşinqton öz töhfəsini gecikdirmək niyyətində deyil. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin yaxın vaxtlarda Amerika paytaxtında görüşləri gözlənilir. Hələlik görüşün dəqiq tarixi yoxdur, lakin hadisələr o qədər sürətlə inkişaf edir ki, bu ilin sonuna qədər danışıqları istisna etmək olmaz.

Dekabrın 7-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da öz növbəsində ABŞ dövlət katibinin Qafqaz üzrə danışıqlar üzrə baş müşaviri Lui Bono ilə görüşüb. Görüşdən sonra bildirilib ki, "erməni tərəfi dövlət katibi Antoni Blinkenin Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Vaşinqtonda görüşü ilə bağlı təklifinə müsbət cavab verib".

Dövlət Departamentinin özü Azərbaycan-Ermənistan birgə bəyanatına, təmkinli Moskva kimi, son dərəcə müsbət reaksiya verdi. Departamentin sözçüsü Metyu Miller cümə axşamı qeyd edib ki, Vaşinqton "Cənubi Qafqaz xalqları üçün dinc və firavan gələcək üçün zəmin yaradan" iki ölkə rəhbərliyinin birgə səylərini yüksək qiymətləndirir. Avropa İttifaqının yüksək səviyyəli rəsmiləri, Avropa Şurasının rəhbəri Çarlz Mişel və Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Josep Borrell də oxşar aspektdə danışıblar. Birincisi Bakı və İrəvanın bəyanatını və atdıqları addımları "əsas addım" adlandırıb. "Mən liderləri mümkün qədər tez sülh sazişi bağlamağa çağırıram", - rəsmi X sosial şəbəkədə yazıb. Borrell həmin platformada "regionda sülhə nail olmaq üçün tarixi şansın" olduğunu bildirib. Qonşu ölkələrin səylərini dəstəkləməyə hazır olduğunu deyib. Cənubi Qafqazda daha fəal oyunçu olan Ankara da məsələyə öz münasibətini bildirib. "İki ölkə arasında etimadın möhkəmləndirilməsi üçün bir sıra konkret addımların atılması qərarından məmnunuq. Biz tərəflərin etimadın gücləndirilməsi üçün əlavə addımların atılması ilə bağlı danışıqları davam etdirmək niyyətini dəstəkləyirik", - Anadolu agentliyi Türkiyə Xarici İşlər Nazirliyindən sitat gətirir.

Azərbaycan-Ermənistan münasibətlərindəki son irəliləyiş ekspertlərə deməyə əsas verir ki, tərəflər həqiqətən də problemli region üçün mühüm, tarixi razılaşmalara yaxındırlar. Əsirlərinin mübadiləsi tərəflərin sülh müqaviləsi imzalamağa çox yaxın olduqlarının göstəricilərindən biri kimi qiymətləndirilir. Amma ilin sonuna qədər imzalanarsa, böyük ehtimalla bu, çərçivə sazişi olacaq, tam hüquqlu sazişin hazırlanması isə daha çox vaxt aparacaq. Qafqaz Siyasi Təhlil Mərkəzinin (Bakı) direktoru Əhməd Əlili də son hadisələri "bugünkü reallıqlarda irəliyə doğru böyük addım" adlandırıb. "Bura Qafqazdır. Burada bir gecədə müharibə başlaya bilər, həm də bir gecədə hər şey dayana bilər. İstisna etmirəm ki, tərəflər tezliklə nəsə imzalayacaqlar", - ekspert deyib.

Bu arada, uzun fasilədən sonra yenidən başlayan iki ölkənin bir-birinə doğru hərəkətində mühüm bir nüans var - əsas sülhməramlı statusu uğrunda Rusiya ilə Qərb arasında rəqabət. Moskva 2020-ci ildə genişmiqyaslı döyüşlərin sona çatmasında əsas rol oynayaraq ilkin olaraq digər aktorları üstələdi. 2020-ci ilin noyabrında Qarabağa Rusiya sülhməramlıları gətirildi, lakin buna baxmayaraq, tam atəşkəs əldə olunmadı. Bu ilin sentyabrında Bakı bölgədə ildırım sürətli antiterror tədbirləri həyata keçirdi, nəticədə bölgə tamamilə separatçılardan təmizləndi, ərazilər Azərbaycanın nəzarətinə keçdi. Qarabağ məsələsinin həlli, indi aydın olduğu kimi, tərəflərin sülh bağlamasına yol açıb. Amma Rusiya istəyir ki, öz ərazisində sülh müqaviləsi imzalansın və Qərb bunun üçün öz xidmətlərini, platformalarını təklif edir. Ermənistan indi Qərbə daha yaxındır, lakin Bakı açıq-aşkar üstünlüklər nümayiş etdirmir, özünün sülh faktında maraqlı olduğunu vurğulayır. Belə bir vəziyyətdə böyük oyunçuların heç biri inciməsin, ya hamı, ya da heç kim qarant olmamalıdır. Birinci vaxtdan, Moskva ilə Qərb arasında münasibətləri nəzərə alsaq, mümkün görünmür. Azərbaycan birbaşa ikitərəfli dialoq təklif edib və təklif edir. Son birgə bəyanatı cəmi iki tərəf verib, üçüncüsü yoxdur. Bu isə o deməkdir ki, imzalanma yeri iki ölkə arasında sərhəddə olacaq.

***V.SALAH***

# Almaniyada müsəlmanlara qarşı diskriminasiya genişlənir



Almaniyada İslam dininə və müsəlmanlara qarşı nifrət və diskriminasiya cəmiyyətin müxtəlif sahələrində özünü ən kobud formada göstərməkdədir. Müxtəlif sosioloji sorğuların nəticələri, elmi araşdırmalar, eyni zamanda, rəsmi dövlət orqanlarının hesabatları onu göstərir ki, müsəlmanlar öz dini kimliyi səbəbindən vaxtaşırı ayrı-seçkilik və zorakı münasibət ilə rastlaşırlar. Almaniya həm də müsəlmanların vətəni olmasına baxmayaraq, onlara qarşı ayrı-seçkilik dövlət siyasəti səviyyəsinə çatmaqdadır və bu problemin köklü şəkildə aradan qaldırılması üçün hökumətdə konkret nəticəyə xidmət edəcək siyasi iradə mövcud deyil. Bu fikirlər Anar Allahverdinin "Almaniyada müsəlmanlara qarşı diskriminasiya genişlənir" sərlövhəli məqaləsində yer alıb. Məqalədə, həmçinin qeyd edilir: "Təkcə 2022-ci ilin hesabatına nəzər saldıqda bunu aydın şəkildə anlamaq mümkündür. Belə ki, Almaniya Daxili İşlər Nazirliyinin hesabatına görə, il ərzində ölkə ərazisində müsəlmanlara və məscidlərə qarşı 569 hücum və zorakılıq aktı həyata keçirilmişdir. Baş vermiş zorakılıq və cinayətkarlıq aktları ilə bağlı yalnız bir hadisə araşdırılaraq cinayəti törətmiş şəxs məsuliyyətə cəlb edilmişdir. Yerdə qalan 568 cinayət və zorakılıq halı ilə bağlı heç bir tədbir görülməmişdir. Həmin psixoloji-kriminal xarakterli zorakılıq hallarından biri məhz bu il iyunun 8-də Baden Vürtenberq əyalətinin Maulbronn şəhərində baş verib. Kimliyi bəlli olmayan bir qrup şəxs həmin şəhərdəki məscidin qarşısından minik avtomobili ilə hərəkət edərək əllərindəki yandırılmış "Qurani-Kərim"i məscidin həyətinə atıb. Bu hadisə Türk-İslam Birliyinə (DİTİB) aid məscidin təhlükəsizlik kameraları tərəfindən qeydə alınıb. Videomateriallar və məscid nümayəndələrinin yazılı müraciəti əsasında şəhər polis idarəsində hadisə rəsmi olaraq qeydə alınmışdır. Qeyd edək ki, həmin məscid 2014-cü il martın 14-də İslam əleyhdarlarının hücumuna məruz qalmışdır və o zaman məscidin divarları, pəncərələri, giriş qapısı nasist svastikaları ilə rənglənmişdir. Ümumilikdə 2022-ci ildə əvvəlki illərlə müqayisədə Federal Antidiskriminasiya Agentliyinə ayrı-ayrı şəxslər tərəfindən edilmiş müraciətlərin sayında ciddi artım qeydə alınmışdır. Belə ki, 2022-ci ildə Antidiskriminasiya Agentliyinə 8827 müraciət daxil olmuşdur və bu rəqəm 2021-ci illə müqayisədə14 faiz çoxdur. 2022-ci ildəki müraciətlərin sayını 2019-cu illə müqayisə etdikdə, artım tempinin iki dəfədən çox olduğunu görürük. Edilmiş müraciətlərin hər iyirmisindən biri məhz dini diskriminasiya ilə bağlıdır.

Antiislam rasizminin Almaniyada sürətlə yayılması bu ölkədə yaşayan hər bir müsəlman üçün ciddi təhdiddir. Cari araşdırmalar deməyə əsas verir ki, müsəlmanlara qarşı dini rasizmin genişlənməsi alman cəmiyyətində tendensiya xarakteri daşımaqdadır. Qısa müddət əvvəl on müstəqil ekspertdən ibarət heyət tərəfindən "alman cəmiyyətində müsəlman düşmənçiliyi" mövzusunda 400 səhifəlik hesabatı özündə əks etdirən araşdırma aparılmışdır. Hesabatda qeyd edilir ki, hər iki almandan biri müsəlman düşmənçiliyi ilə bağlı çağırışlarla bu və ya digər şəkildə razıdır, bilavasitə antimüsəlman çağırışları normal qəbul edir. Bundan başqa, araşdırma zamanı müəyyən edilmişdir ki, müsəlman dini kimliyinə aid olanlar diskriminasiyaya məruz qalan digər insan qrupları ilə müqayisədə daha çox təzyiqlə üzləşirlər. Xüsusən də baş örtüyündən istifadə edən qadınlar müsəlman olduqları üçün amansız formada təzyiqlərə məruz qaldıqlarını bildirirlər. Hesabata görə, mediada, ictimai və dövlət idarələrində belə halların baş verməsində davamlı olaraq artım müşahidə edilməkdədir.

Azərbaycana da onun uzun müddət məruz qaldığı ərazi probleminə də məhz yuxarıda qeyd edilən dini diskriminasiya kontekstində yanaşma mövcuddur. Belə ki, alman cəmiyyətində ictimai rəyin formalaşmasında əsas rol oynayan mətbuatla yanaşı, siyasi elmi ədəbiyyatda da Ermənistanın işğalçılıq faktı davamlı olaraq "xristian Ermənistanı ilə müsəlman Azərbaycanı arasında Dağlıq Qarabağ münaqişəsi" şəklində təqdim olunur. Münaqişənin xarakteri və hüquqi-siyasi identifikasiyası onu deməyə əsas verir ki, Qarabağ münaqişəsi heç bir halda və heç vaxt dini xarakter daşımayıb. Bu, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və "böyük Ermənistan" xülyasını həyata keçirməyə çalışan bəzi qüvvələrin həmin məqsədlə göstərdikləri qərəzli "səylər"in nəticəsində yaranıb. Bir milyondan çox azərbaycanlını doğma yurdundan didərgin salan Ermənistan Azərbaycanın ərazisinin 20 faizini 30 il işğal altında saxlayıb, oradakı şəhərləri, kəndləri yerlə-yeksan edib, təbii sərvətləri talayıb. Belə olan halda, münaqişənin dini kontekstdə təqdim olunmasının hansı məqsədə xidmət etməsi ilə bağlı ciddi sual yaranır. Sualın cavabını tapmaq Almaniyadakı əhalinin mütləq əksəriyyətinin müsəlman olmadığını nəzərə aldıqda o qədər də çətin deyil. Beləliklə, əsl məqsədin nədən ibarət olduğu ortaya çıxır.



# “Qalib Prezidentimizi bir daha prezident seçək”

SORĞU

***Məlumdur ki, Azərbaycanda 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkiləri keçiriləcək. Dünya ilk dəfə postsovet məkanında torpaqlarını işğaldan azad edən ilk dövlətin bütün ərazilərində seçki keçirəcəyini görəcək. SİA mövzu ilə əlaqədar şəhər sakinlərinin bu təşəbbüsə münasibətini öyrənmək üçün sorğu keçirib.***

**Şəhər sakini, tarix üzrə fəlsəfə doktoru İlqar Abdullayev:** “Prezident seçkiləri xalqımız tərəfindən razılıqla qarşılanacaq. Yəqin ki, xalq möhtərəm Prezident İlham Əliyev cənablarının ətrafında sıx birləşəcək. Ona etimadını göstərəcək. Yaxın keçmişdə baş vermiş hadisələr, 44 günlük vətən müharibəsi, 19-20 sentyabr hadisələri, erməni faşistlərinin tapdağı altında qalmış torpaqlarımızın geri qaytarılması, Qarabağımızın tamamilə Azərbaycanın tərkibinə birləşməsi, gözəl Şuşamızda bu gün tikinti işlərinin getməsi, bütün bunlar xalqın nəzərindən yayınmır. Xalqın gözü tərəzidir. Xalq hər şeyi görür, yüksək qiymətləndirir. Güman edirəm ki, xalq İlham Əliyevə yenə də ehtiramını göstərəcək, onu prezident seçəcək. Mən buna şübhə etmirəm”.

**Şəhər sakini Sabir Muradov:** “Seçkilərə münasibətim müsbətdir. Azərbaycanın 20% torpağı işğal altında idi, orada seçkilər keçirilmirdi. Həmişə yarımçıq olurdu. İndi qələbə qazanıb torpaqlarımızı azad etmişik. Seçkilərin vaxtıdır ki, hamı iştirak etsin, öz münasibətini göstərsin, qalib prezidentimizi bir daha prezident seçsin”.

**Şəhər sakini Çimnaz Aslanova:** “Gözəl hisslər keçirirəm. Düzdür, itkilərimiz oldu, amma torpaqlarımız azad edildi. Çox sevinirik ki, torpaqlarımız geri qaytarıldı. Tam dəstəklə prezidentimizi seçəcəyik”.

**Şəhər sakini Fərid Əliyev:** “Bu təşəbbüsü normal qiymətləndirirəm. Mənim fikrimcə, İlham Əliyev əla dövlət başçısıdır. Qarabağın işğaldan azad edilməsində böyük rol oynayıb”.

**Şəhər sakini Nailə Xəlilova:** “Həm bu gün, həm də fevralın 7-də, 20 il bundan sonra da Allah İlham Əliyevə ömür versin. Allah onu bizə yetirib. Çox böyük xoşbəxtlikdir, həmişə minnətdarlığıma görə gözüm dolur. Məni insan edib, qürur hissi keçirirəm ona görə. Münasibətim çox xoşdur”.

**Şəhər sakini Fikrət Kazımov:** “Mən “Yazıçılar Birliyi”nin üzvüyəm. Şəhidlər haqqında kitab müəllifiyəm. Müzəffər Ali Baş Komandanın, müzəffər ordunun, müzəffər xalqın böyük hadisədən, qələbədən sonra birinci seçkiləridir. Mən Ulu öndərin zamanında işləyən biri kimi onunla fəxr edirəm. Vaxtı gəlib ki, Azərbaycan daha da yaxşı islahatlarda iştirak etsin. Cəmiyyətdə yaxşı ab-hava var. Hamı hazırdır, qazilər sağlamlıqlarına uyğun olaraq işlə təmin olunur. Şəhidlər həmişə yad olunur, uca tutulur. Məncə, bu seçkilərdən sonra böyük dəyişikliklər olacaq. Həm kadr dəyişikliyi, həm insanların həyatının yüngülləşməsi baş verəcək. Bilirsiniz ki, ilin sonunda həmrəylik bayramı var. Və Heydər Əliyevin 100 illiyidir. Ulu öndərin yolu əbədidir. Baxmayaraq ki, hava pis idi, mən onun qəbrini ziyarət etdim. Hər il üç dəfə ziyarət edirəm, mayın 10-u, iyunun 15-i, dekabrın 12-si. Milli Məclisin bu il yaxşı təşəbbüsü oldu ki, 14 iyul tarixi Heydər Əliyevin 1-ci dəfə hakimiyyətə gəlmək günü elan olunsun, bayram kimi qeyd olunsun. Mən bu fikri 2019-cu ildə məqalədə yazmışdım. Yəqin qanun çərçivəsində öz əksini tapar. Bu da yəqin, prezident seçkilərindən sonra olacaq”.

**Şəhər sakini Ülviyyə Nəhmətova:** “Məncə, çox doğru qərardır, addımdır. Xalq da bunu istəyirdi və doğru seçimi edəcək. Zatən bəllidir. Çünki ondan yaxşı bizim üçün lider ola biləcək insan yoxdur. Bütün torpaqlarımızda seçki keçiriləcək. Qarabağ azad olunub və seçkilərin orada da keçirilməsi qürurvericidir. İnsanlar torpaqlarımıza geri qayıdıb və öz torpaqlarından səsvermədə iştirak edəcəklər. Bu, çox qürurvericidir.

# Əbədiyaşar Lider

## *Şirvan şəhərində “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib*



***“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Şirvan şəhər təşkilatı dekabrın 14-də tədbir keçirib.***



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Sonra Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb. Daha sonra tədbir iştirakçıları Şirvan şəhər məktəblilərinin rəsm və əl işlərindən ibarət sərgi ilə tanış olublar. Tədbirdə Dövlət Himni səslən-




dirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən video-çarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov müstəqil Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında misilsiz xidmətləri, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi barədə danışıb. O bildirib ki, Ulu Öndər Heydər Əliyev xalqımızın gələcəyini düşünərək yorulmaz fəaliyyət göstərib, qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb.

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin fəaliyyəti Azərbaycan xalqının milli sərvətidir: “Bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir. Ulu Öndərin fəaliyyətinin hər bir mərhələsi ayrı-ayrılıqda tədqiqat mövzusudur. Fəxarət hissi ilə qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb və bu abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir”.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna yeri və rolundan bəhs edib. Onun sözlərinə görə, Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir: “Məhz onun uzaqgörənliyi, strateji düşünmə bacarığına əsaslanan idarəçilik modeli qısa zaman kəsiyində ölkəmizin dayanıqlı və davamlı inkişafını təmin edib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmiz inkişaf yolunda əmin addımlarla irəliləyib, Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan parlaq nailiyyətlər qazanıb”.

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova bildirib ki, bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısında xidmətləri misilsizdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Heydər Əliyev erası Azərbaycanda müstəqillik, quruculuq, inkişaf, sabitlik, tərəqqi dövrüdür. Müasir mərhələdə Azərbaycanın inkişafı da məhz Ulu Öndər tərəfindən təməli qoyulmuş iqtisadi, siyasi, mədəni, intellektual əsaslarla bağlıdır.

Şəhid atası Alim Zülfüqarov, Vətən müharibəsi veteranı Ümüd Quliyev və Şirvan şəhər 20 saylı tam orta məktəbin müəllimi Fidan Baloğlanova çıxışlarında vurğulayıblar ki, Heydər Əliyev dünya miqyasında tarixi şəxsiyyətlər sırasında öz layiqli yerini tutub, xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Sonra şəhərin ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

***Fransanın anti-Azərbaycan mövqeyi bu vaxta qədər bir çox istiqamətlərdə dəfələrlə özünü göstərib və rəsmi Parisin Bakıya qarşı əsassız, ədalətsiz, haqsız, ikili yanaşmalarının mütəmadi olaraq şahidi olmuşuq. Bir növ, ermənipərəst fransızların məhz Azərbaycana, azərbaycanlılara qarşı haqsızlığı, davamlı xarakter aldığına və onlar üçün sanki ənənəyə çevrildiyinə görə artıq təəccüb belə doğurmurdu. Lakin Azərbaycan jurnalistinə Fransada "casus" adı qoyulması heç bir halda təəccüb doğurmaya bilməzdi və bu, artıq həm ölkəmizə qarşı, azərbaycanlılara qarşı qərəzin hansı səviyyədə olduğunu, həm də Fransa adlı bir Avropa ölkəsinin azad sözə necə "qiymət" verdiyini, daha doğrusu, qətiyyən qiymət vermədiyini ortaya qoydu.***

# Fransadan mediaya, söz azadlığına qarşı HÖRMƏTSİZLİK

TƏHLİL




Bu ilin 3 dekabr tarixində redaksiya tapşırığını yerinə yetirmək üçün Yeni Kaledoniyaya ezam olunmuş AZƏRTAC-ın jurnalistinin "sənəd problemi" bəhanəsi ilə ölkəyə buraxılmaması, 24 saat polis nəzarətində saxlanıldıqdan sonra adalardan "qovulması" Fransanın əsl üzünü göstərdi. Söz azadlığından dəm vuran bir Avropa ölkəsi ümumiyyətlə, azad sözü yaxına belə buraxmadığını açıq şəkildə göstərdi. "Azərbaycanın sabitliyi pozma əməliyyatı", başlıqlı və buna bənzər yazıların Fransa mətbuatında geniş şəkildə yer alması isə, artıq heç bir çərçivəyə sığışmadı desək, fikrimizi tam izah edə bilmərik. Çünki jurnalistlərimizin casusluq fəaliyyətində ittiham olunması Fransa tərəfindən edilən həyasızlığın ən son həddi hesab olunur. Heç şübhəsiz ki, bu həyasızlıq dünya ictimaiyyətinin də, dünya mediasının da diqqətindən yayınmamalıdır və yayına da bilməz. Ona görə ki, jurnalistin "casus" kimi ittiham olunması təkcə Azərbaycan jurnalistinə deyil, bütövlükdə dünya mediasına qarşı hörmətsizlik və hətta tərbiyəsizlikdir.

Ölkəmizə qarşı rəsmi Parisin qərəzli münasibət, haqsız, ədalətsiz, ikili yanaşma sərgiləməsinə bəraət qazandırmaq üçün, fransızlar çarəsiz bir şəkildə "casus" qalmaqalına əl atıblar. Amma bu çox uğursuz bir addımdır, çünki əvvəla, heç bir şəkildə qəbul olunan deyil və söz azadlığına qarşı təpki hesab olunur, digər tərəfdən də heç cür inandırıcı olmadığı səbəbindən çox çirkin kompaniya olaraq qiymətləndirilir. Hər bir halda, Fransa Azərbaycana qarşı öz qərəzini onsuz da istənilən istiqamətdə göstərmişdi və belə bir addıma Parisin nə səbəbə ehtiyac duyduğu çoxdan bəllidir. Heç şübhəsiz ki, bu il Bakıda keçirilən müxtəlif beynəlxalq sammitlər çərçivəsində Fransanın müstəmləkəçiliyi ilə bağlı gedən müzakirələr fransızlara əməlli-başlı təsir edib, baxmayaraq ki, özlərini görməməzliyə vururdular. Hətta elə bir səssizlik nümayiş etdirirdilər ki, guya həmin müzakirələr heç onlara təsir də edən olmayıb. Amma jurnalistimizə qarşı bu qədər tərbiyəsiz davranış göstərilməsi ilə indi təsdiq olundu ki, həmin müzakirələr Fransada yetərincə qıcıq yaradıb, lap elə kifayət qədər də təsirli olub. Lakin "Azərbaycanın sabitliyi pozma əməliyyatı", başlıqlı və buna bənzər yazıların geniş şəkildə yer aldığı Fransa mediası, bu ilin iyul ayında Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər sammiti çərçivəsində Kaledoniya, Martinika və Polineziya müstəqillik tərəfdarlarının iştirakı ilə təşkil olunan dəyirmi masanı bir qədər gec xatırlamalı olub. Üstəlik, Fransanın müstəmləkəçilik siyasəti aparmaqda günahlandırılmasının qarşılığında "qisas" almaq üçün düzgün hədəf də seçə bilməyib və ölkəsində söz azadlığına qətiyyən yer olmadığını çox açıq-aşkar şəkildə ifşa edib.

Əlbəttə ki, ölkəmizin Yeni Kaledoniyaya ezam olunmuş jurnalistini Fransanın "casus" kimi qələmə verməsi cavabsız qala bilməzdi və Azərbaycan Mətbuat Şurası bununla bağlı bir bəyanat dərc edib. Qeyd olunub ki, Yeni Kaledoniyada baş verən yolverilməz hərəkətlərin dünya mediasında geniş işıqlandırılması Fransanın hakim dairələrini "arqument" axtarışına tələsməyə sövq edib. Sözsüz ki, jurnalistimizə qarşı aparılan qara piar kampaniyası və onların "casus" kimi qələmə verilməsi alqışlanacaq deyildi. Hətta yaxın gələcəkdə bununla bağlı dünya mediasının da öz mövqeyini göstərəcəyinin şahidi olacağımıza Fransa tam əmin ola bilər. Əmin ola bilər ki, Fransa rəhbərliyinin belə açıq-aşkar anti-Azərbaycan mövqeyi ən azından Fransanın, onsuz da koloniyal siyasəti fonunda yox dərəcəsində olan imicini yerlə yeksan etməkdədir və rəsmi Parisin diplomatiya ənənələrinin çürük olduğunu göstərməkdədir. Onsuz da bunu fransızlar çox aydın şəkildə görürlər, müşahidə edirlər, əks halda, belə bir aqressiv şəkildə reaksiya verməzdilər.

Azərbaycanlı jurnalistə qarşı edilən haqsızlığın, hörmətsizliyin ardınca Fransa mediasında dezinformasiya xarakterli məlumatların tirajlanması isə heç diqqətdən yayınan deyil və bu, bir çox məqamlardan xəbər verir. Əvvəla ondan xəbər verir ki, həmin dezinformasiyanın arxasında məhz Fransanın rəsmi qurumları dayanırlar. Çünki belə olmadığı təqdirdə, Fransada bu şəkildə, yəni "aqressiv" bir formada həmin dezinformasiya tirajlana bilməzdi və birinci növbədə də bunun qarşısını elə rəsmi Paris özü alardı. Yəni, həmin dezinformasiyanın arxasında Fransanın rəsmi qurumları dayanmasaydı, qətiyyən buna imkan verilməzdi. Digər tərəfdən də, həmin dezinformasiyanın tirajlanması Yeni Kaledoniyada jurnalistimizə qarşı edilən haqsızlığı, ümumiyyətlə, mediaya qarşı edilən hörmətsizliyi ört-basdır etmək cəhdi idi. Azərbaycan jurnalistinə qarşı fransızların etdikləri hörmətsizliyin bütün dünyada qınanılacağını əvvəlcədən başa düşdükləri üçün media vasitəsi ilə bunu ört-basdır etmək kimi çirkin əmələ də əl atmış oldular, hansıki bunun özü də çox utancverici məqamlardan hesab olunur. Məhz Fransa üçün ona görə çox utancverici məqamlardan hesab olunur ki, mediaya, söz azadlığına qarşı edilən hörmətsizliyi ört-basdır etmək üçün rəsmi Paris elə məhz ölkəsinin mediasını da alət etmiş oldu. Daha dəqiq desək, Fransa mediaya qarşı daha bir hörmətsizlik etdi və bununla da hətta öz mediasına belə hörmətsizlik etdiyini gizlədə bilmədi...

Yeni Kaledoniyada azadlıq tələbi ilə yürüşə çıxanların haqq səsini dünyaya çatdırmaq istəyən jurnalistlərə Fransa hökumətinin bu cür qeyri-rəsmi formada "casus" damğası vurmaq cəhdi heç şübhəsiz ki, ilk növbədə, həmin ölkədə demokratik dəyərlərin olmamasının göstəricisidir, baxmayaraq ki, bu Avropa ölkəsi özünü demokratik ölkə kimi bütün dünyaya sırımağa çalışır. Diqqətə çatdıraq ki, bununla yanaşı, jurnalistə "casus" damğası vurmaq, ümumiyyətlə, azad söz, media azadlığı kimi fundamental prinsiplərin tələblərinə qarşı çox böyük hörmətsizlik kimi qiymətləndirilir. Əlbəttə ki, məqalədə qeyd olunan absurd və cəfəng iddialar da təxribat xarakterli feyk informasiya hesab olunur. Həmin feyk informasiyanın tirajlanmasında Fransa hökumətinin məqsədi beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaqdır. Məhz belə çaşqınlıq yaratmaqla da əsl həqiqətləri gizlətmək niyyəti güdülür, hansı ki, bu, elə məhz mediaya, azad sözə qarşı ən böyük hörmətsizlik deməkdir.

Diqqəti cəlb edən daha bir məqam isə, Yeni Kaledoniyada polisin məhz Azərbaycan jurnalistinin peşə fəaliyyətinə qarşı süni əngəl yaradan hallara etinasızlıq, sayqısızlıq etməsidir. Yeni Kaledoniyada qanunun aliliyini qorumalı olan, fundamental insan hüquq və azadlıqlarının qorunmasında mükəlləf olan polisin belə, söz azadlığının pozulmasına müşahidəçi mövqe sərgiləməsi də çox utancverici məqamdır. Bu, haqsızlığa qarşı göz yummaq, bunu qəbul etmək deməkdir və bir ölkə polisi üçün qətiyyən qəbulolunmazdır. Azərbaycan jurnalistinə qarşı haqsızlığın Kaledoniya İttifaqı siyasi partiyasının prezidenti Daniel Qoa tərəfindən pislənilməsi, media təmsilçimizə dəstək ifadə olunması heç də təsadüfi deyil, məhz həmin etinasızlığa, sayqısızlığa, ələlxüsus da mediaya, söz azadlığına olan hörmətsizliyə qarşı birbaşa etiraz səsinin ucaldılması deməkdir.

Jurnalistlərimizin məhz Fransaya məxsus mətbuat orqanlarında, mediada gözdən salınması cəhdləri onu deməyə əsas verir ki, rəsmi Paris öz despotik mahiyyətini ört-basdır etmək üçün hər vasitəyə əl atır və bu zaman mediaya hörmətsizlik etməkdən, söz azadlığını pozmaqdan da çəkinmir. Görünür, müstəmləkə boyunduruğu altında saxladığı xalqlar ilə, ələlxüsus da Yeni Kaledoniya xalqı ilə bağlı həqiqətlərin yayılmaması, gizlədilməsi üçün hər vasitə, hətta söz azadlığının boğulması da, mediaya olan hörmətsizlik də Fransa üçün qəbulolunandır. Mediaya, söz azadlığına hörmətsizlik edən rəsmi Paris bir şeyi unudur ki, onsuz da Fransanın kolonial siyasəti barədə bütün dünya kifayət qədər məlumata malikdir və bir ölkənin jurnalistinin həqiqətləri qeydə almasına mane olmaqla, dünya ictimaiyyətinin məlumatlandırılmasının qarşısı qətiyyən alına bilməz.

Əlbəttə ki, Azərbaycan jurnalistinə qarşı Fransada, bu ölkə mediasında aparılan qarayaxma kampaniyasına bütün dünya, ələlxüsus da dünya mediası biganə qalmamalıdır. Məhz jurnalistə qarşı təxribat xarakterli informasiyaların yayılması, tirajlanması, xüsusilə dünya mətbuatında pislənilməlidir. Bu gün özünü dünyanın demokratiya carçısı hesab edən Qərbin mediası, azad sözə münasibətdə dözümsüzlük nümayiş etdirən, bununla da anti-demokratik addım atan rəsmi Paris, Fransa mediası barədə öz kəskin mövqeyini bildirməlidir. Əgər həqiqətən də demokratik dəyərlər, söz azadlığı hələ də dünya miqyasında, qlobal müstəvidə nəzərə alınırsa, qorunursa, Fransanın Azərbaycan jurnalistinə qarşı etdiyi hörmətsizliyə dərhal sərt reaksiya verilməli, ən azından bunun demokratiya kimi ali dəyərlərə zidd olduğu xatırladılmalı, müvafiq xəbərdarlıq edilməli, hətta təsirli tədbirlər görülməlidir. Əks halda, yəni cəzasızlıq olduğu halda, Fransanın mediaya, söz azadlığına qarşı etdiyi hörmətsizlik ənənə halını ala bilər və bu, təkcə Azərbaycan jurnalistinə deyil, bütövlükdə, bütün dünya mediasına, azad sözə qarşı hörmətsizliyin adi hala çevrilməsinə gətirib çıxara bilər...

***İnam Hacıyev***

# Köç karvanları Laçına tələsir









***Köç karvanları mənzillərə yol alır. Neçə-neçə insanın köç yolunun başına çıxanda ürəyi döyünür. Yüklənmiş köç maşınları ellər, obalar ötərək qalın meşələri, dağları keçərək mənzillərə tələsir. Bulaqlara, dağlara qəribsəmiş əzəli sakinlər bu yerləri səcdəyə gəlir. Vaxtilə buradan çıxan insanlar pərişan halda, göz yaşı, od-alov içində dədə-baba ocaqlarını tərk etmişdilərsə, bu gün qürurlu bir şəkildə doğma yurda köç edirlər. İllər dolandı və ədalət bərpa olundu. Bu yerlər günəş sanki yenidən doğdu. Daha bir köç karanını yola saldıq.***

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı dekabrın 14-də Bakı şəhərinin Qaradağ rayonundan yola salındı. Bu mərhələdə Laçın şəhərinə daha 20 ailə (86 nəfər) köçürüldü. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Laçın sakinləri də hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Xatırladaq ki, indiyədək Laçın şəhərində 383 ailənin (1475 nəfər) daimi məskunlaşması təmin edilib.

Xatırladaq ki, Laçının işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqları yerlərə göndərilməsi əsas məsələrdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb.

İllər öncə yurd-yuvasından didərgin düşənlər bu gün sönmüş çiraqlarını yandırıb, yeni həyata başlayırlar. Bu həyat acı keçmişi arxada qoyub xoşbəxt bir dünyaya səsləyir insanları. Yenidən çiçəklənən ərazilərimiz doğma sakinlərini qarşılamağa davam edir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

## 31 İLDƏN SONRA LAÇININ MƏNZƏRƏSİ

Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər əzəli yurdda rahat nəfəs alırlar. Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Laçının Zabux kəndi də bu sevinci yaşadı. İlk mərhələdə 88 nəfərdən ibarət 20 ailə Zabuxa köç etdi. Bakıdan, Lökbatandan Zabuxa yol alan karvan məcburi köçkünləri neçə ilin həsrətindən sonra el-obası ilə görüşdülər. Ailə tərkibinə uyğun olaraq, onlardan 4-ü ikiotaqlı, 4-ü üçotaqlı, 8-i dördotaqlı, 4-ü beşotaqlı mənzillə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar. Qeyd edək ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib. Əlbəttə ki, Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsidir. İşğaldan azad olunduqdan dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə bütün Qarabağ və Şərqi Zəngəzur kimi, Laçında da nəhəng bərpa və yenidənqurma işlərinə başlanılıb. Baş plana əsasən, şəhərdə ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur. Laçında indiyədək bir sıra infrastruktur layihələri icra edilib. Şəhər ərazisində 7 park salınır ki, onların da artıq ikisində işlər tamamlanıb. İdman kompleksi və Həkəri çayının ətrafında çimərlik-istirahət mərkəzi salınır. Eyni zamanda, yollar relyefə uyğun olaraq genişləndirilib, işıqlandırma işləri görülüb. Şəhərin işıqlandırılması müasir modelə tam uyğunlaşdırılıb. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı İlham Əliyevin nəzarəti altındadır. İşğaldan azad olunmuş ərazilərimizin inkişafını daim xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev Laçın rayonuna səfərləri zamanı dövlətimizin başçısı Güləbird Su Elektrik Stansiyasının, "Qorçu" və "Laçın" şəhər yarımstansiyalarının, Laçın şəhərində 1 Dekabr, Heydər Əliyev, Zəfər və 28 May, Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişmələrindəki lövhələrin açılışını edib, Laçın Beynəlxalq Hava Limanının, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin, 110/35/10 kV-luq "Laçın" Qovşaq Yarımstansiyasının, Qorçu qəsəbəsinin və Şəlvə kəndinin, Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoyub, rayonda həyata keçirilən layihələrin, aparılan quruculuq işlərinin gedişi ilə tanış olub. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Laçın şəhərində əhalinin istirahətinin səmərəli təşkili istiqamətində də tədbirlər həyata keçirilir. Şəhərin giriş hissəsindəki körpünün sol istiqamətində salınan çaykənarı bulvar Laçın sakinlərinin və bura gələn qonaqların sevimli istirahət məkanlarından olacaq. Artıq Həkəri çayında astana və göl yaradılıb. Gölün üzərində asma körpü inşa edilib, ətrafında yaşıllıqlar salınıb, kotteclər tikilib.31 ildən sonra yenidən doğma kəndinə qədəm qoyan ailələr həsrətini çəkdikləri kəndin gözəl mənzərəsi ilə tanış olurlar.Vətən müharibəsində qazandığımız Zəfərdən üç il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar.

## ZABUX KƏNDİNDƏ BİR ƏSRƏ YAXIN YAŞI OLAN MƏKTƏB FƏALİYYƏTƏ BAŞLAYIB

Artıq Laçın yenidən qurulur. Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Görülən və görüləcək işlər böyük quruculuq, abadlıq işləridir. Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı layihələrin reallaşmasına imkan verir. 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir.

Həyatın yenidən canlandığı Laçın rayon Zabux kəndinin bir əsrə yaxın yaşı olan məktəbi yeni binada fəaliyyətə başlayıb. Kənddə 31 ildən sonra ilk dəfə məktəb zənginin sədaları ətrafa yayılıb.

Zabux kəndində şəhid Ədalət Məmmədov adına kənd tam orta məktəbin fəaliyyətə başlaması əlamətdar hadisədir. Kənddə məktəb ilk dəfə 1926-cı ildə fəaliyyətə başlayıb, həmin məktəbin şagirdləri müxtəlif peşə və sənət sahibləri olublar. Lakin 1992-ci ildə Laçının Ermənistan tərəfindən işğalı zamanı kənd tamamilə dağıdılıb, məktəb binası da yerlə-yeksan edilib. İki mərtəbədən ibarət olan məktəb 176 şagird yerlikdir. Binada 11 sinif otağı, kimya, fizika laboratoriya otaqları, informatika kabineti, yeməkxana, tibb otağı, akt və gimnastika zalları, hərbi hazırlıq kabineti, kitabxana, həyətdə isə idman meydançası var. Məktəbin dayanıqlı istilik və elektriklə təchizatı üçün qazanxana və transformator quraşdırılıb, su təminatı üçün anbar inşa olunub. Hazırda məktəb 40 şagird və 17 müəllimlə tədrisə başlayıb.

Xatırladaq ki, Prezident İlham Əliyev ötən il sentyabrın 22-də Laçın rayonu, Zabux kənd tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalamışdı.

Bu gün Laçınımız abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli sakinlərin bu torpaqda rahat, firavan yaşamasına istiqamətlənib.

***Zümrüd BAYRAMOVA***

# Xarici dil ixtisasını bitirənlər dil bilmir

## Universitetlərdə xarici dil ixtisasları üzrə təhsil alan tələbələrin ünsiyyət dilinə diqqət edilmir

***Hər hansı bir dil üzrə təhsil alan tələbə o dilin bütün incəliklərini, dilin mənsub olduğu ölkənin mədəniyyətini və ədəbiyyatını öyrənməli, bütün öyrəndiklərini, eləcə də öz fikirlərini təhsil aldığı dildə asan ifadə etməyi bacarmalıdır. Dolayısı ilə, hansı dildə təhsil alırsa, o dili ana dili kimi danışmalıdır. Lakin bir çox halda balı yetdiyi ixtisası seçən tələbə təhsil aldığı dil üzrə ən primitiv bilgilərə də sahib olmur. Universitetin ingilis, alman və s. dil ixtisaslarında təhsil alan tələbələr dil biliyi almaq üçün əlavə repetitor köməyindən istifadə edir.***



Təhsil eksperti Ramin Nurəliyev təklif edir ki, Azərbaycan Dillər Universitetində və digər universitetlərdə ingilis dili müəllimliyi ixtisası ilə tərcümə ixtisaslarında tələbələr arasında danışıqlar ingilis dilində aparılsın. Həmçinin universitetlər tələbələrə ingilis dilində danışmağı tövsiyə edərək bu yöndə təşviq etsin: "Bu gün bizim gənclərimizdə ən böyük problemlərdən biri də ingilis dilində danışıq məsələsidir. Düşünsək ki, bu dil beynəlxalq dildir və çox tələb olunur, buna görə də gənclərdə dil-danışıq bacarığını artırmaq lazımdır. Əlbəttə, qrammatika da lazımdır, amma bununla yanaşı danışıq dilini öyrənmək də mütləqdir. Çox təəssüflər olsun ki, hazırda ali təhsil ocaqlarının bir çoxunda buna diqqət edilmir. Xüsusilə də, bu ixtisasları tədris edən universitetlərdə buna diqqət ayrılmalıdır".

Ekspert bildirir ki, bununla yanaşı tədris ingilis dilində olan ixtisaslarda da danışıq dilinə üstünlük vermək lazımdır: "Bu ixtisaslar üzrə tədris aparan universitetlərin məzunlarının əksəriyyəti danışıq dilindən əziyyət çəkir və kurslara müraciət etmək məcburiyyətində qalır. Halbuki bizim əksər universitetlərdə bu imkanlar genişdir və bu təklifi etmək imkanları var. Ümidvaram ki, ali təhsil ocaqları bu təklifə müsbət yanaşacaq və danışıq bacarığını tətbiq etmək üçün səy göstərəcəkdir."

Valideyn İlahə Rəcəbova təhsil ekspertinin fikirləri ilə razıdır: "Gözəl və vacib təklifdir. Qızım 98 bal yığdı ingilis dilindən və səviyyəsi hal-hazırda B1-B2 aralığıdır. Danışa bilir, fikrini sərbəst çatdırır və biz bunu universitetdə yox, öz gücümüzə öyrənmişik. Ancaq bu bizə kifayət deyil. ADU, ingilis dili müəllimliyi ixtisasında təhsil alır və belə qərar aldıq ki, universitetdən istədiyimizi ala bilmədiyimizə görə, gələcək karyerası üçün yenidən, bu dəfə danışıq və bir çox sertifikatlar almaq üçün kənar müəllimə üz tutaq. Çünki düşünürəm ki, müəllim hərtərəfli olmalı, sənətinin incəliyini bilməlidir. Məktəblərdə ingilis dili müəllimlərinin böyük əksəriyyəti ingiliscə danışa bilmir. Ancaq düşünürəm ki, bu belə olmamalıdır, gələcəyin ingilis dili müəllimi təhsil aldığı ocaqda tam olaraq yetişdirilməlidir".

Universitetin ingilis dili müəllimi Elvir İsayev isə bildirir ki, bu sahədə problemlər coxdur: "Birinci, İngilis dili müəllimliyi fakültəsində Azərbaycan dilində danışmağa icazə verilməməlidir. İkincisi, dərslər qrammatika əsaslı yox, danışıq əsaslı davam etməlidir. Ən böyük problem isə İngilis dili müəllimliyi fakültəsinə tələbə qəbul edəndə birinci "Language proficiency" imtahanına girməli, B2 olarsa fakultəyə başlamasına icazə verilməlidir. Məsələn, mənim çalışdığım universitetdə butun ELT, ELL, TR (müəllimlik, ədəbiyyat, tərcümələr) tələbə əvvəlcə imtahana girir, sonra B2 alarsa biz dərsə icazə veririk. Əks halda 1 semestr və ya 2 semestr universitetin level artırma departamentinə gedib, 4 bacarıqdan B2 alıb dərsə qatılmağa haqq qazanır. Bunlar olmadığı müddətcə heç bir inkişaf ola bilməz".

Müəllim deyir ki, tələbə 650 balla qəbul olubsa, bu, onun savadlı tələbə olması demək deyil: "Bal ilə dilin qətiyyən heç bir əlaqəsi yoxdur. Dil ixtisaslarında 400 bal toplayan tələbə ilə, 650 bal yığan arasında heç bir fərq yoxdur, çünki bu texniki fənn deyil ki, biri cox, biri az bilə. Ya da, digər fənlərdən yüksən bal toplayan tələbə ingilis dilindən yaxşı nəticə verəcək deyə bir şey də yoxdur. Olar ki, tələbə 400 bal yığar, amma sırf dil üzərində işləyər və çox mükəmməl müəllim olar. Yəni, dil ixtisaslarında bal önəmli deyil, əsas önəmli olan, dili nə qədər sevir, dilə nə qədər vaxt ayırır və həyatının neçə faizi dildir".

**Lalə Mehralı**

# "Prezident Ərdoğan Qəzza səylərində aparıcı rol oynayır..."

***Rusiya prezidenti Vladimir Putin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Qəzzadakı səylərini yüksək qiymətləndirib. SİA bu barədə Tükiyə saytlarına istinad edir.***



Paytaxt Moskvada "Qostini Dvor" Ticarət və Sərgi Mərkəzində keçirilən illik xüsusi sual-cavab sessiyası və il sonu mətbuat konfransında çıxışında V.Putin 2024-cü ilin əvvəlində Türkiyəyə səfər edə biləcəyini söyləyərək deyib: "Prezident Ərdoğan Qəzza səylərində aparıcı rol oynayır. Türkiyə prezidenti Qəzzada baş verən faciəyə diqqət çəkən, vəziyyəti yaxşılaşdırmaq və uzunmüddətli sülh üçün şərait yaratmaq üçün hər şeyi edən beynəlxalq liderlərindən biridir. Biz də Türkiyə kimi BMT-nin Fələstin dövlətinin yaradılması ilə bağlı qəbul etdiyi qərarların icrasının tərəfdarıyıq. Bu məsələlərdə Ərdoğanla tez-tez danışırıq. Bizim yanaşmalarımız çox yaxındır".

Xatırladaq ki, "Həmas"ın hərbi qanadı Qəssam birləşmələri oktyabrın 7-də İsrailə qarşı "Əqsa tufanı" adlı hərtərəfli hücuma keçib. Buna cavab olaraq İsrail ordusu döyüş təyyarələri ilə Qəzza zolağına qarşı "Dəmir qılınclar" əməliyyatına başlayıb. Artan gərginlikdə əksəriyyəti uşaq olmaqla 18 mindən çox fələstinli həyatını itirib.



# Altımızdakı minalar

**Lalə Mehralı**

***Televiziyanın nə qədər təsirli bir vasitə olduğu məlumdur. O cəmiyyətin istiqamətini də müəyyənləşdirə bilir, əxlaqını da. Yaxşı örnək də ola bilir, pis örnək də. Televiziya verilişlərinin cəmiyyətə töhfə verəcək dövrləri yaxın keçmişdə qaldı. Əvvəl cəmiyyətin yarasını sarıyan televiziya verilişləri indi yaranın qaysağını qopartmaqla məşğuldur.***

Ümumiyyətlə, mənəvi dəyərlərə uyğun, cəmiyyəti düzgün istiqamətə yönəldən, gənclərimizi gələcəyə yaxşı hazırlayan televiziya proqramları yox dərəcəsindədir. Daha ailəlikcə, böyüklü-kiçikli izlədiyimiz intellektual şoular yoxdur efirdə, əvəzində əxlaqdan yoxsul, yüngül şoular ayaq açıb efirə.

Tarixin heç bir dövründə mədəni, milli, mənəvi dəyərlərimizi qorumaq bu qədər çətin olmayıb. Xüsusilə də, televiziyada yayımlanan müəyyən proqramlar, o proqramlarda efirə çıxarılan təhrif olunmuş münasibətlər, pis nümunələr, ailədaxili zorakılıq, əxlaqsız davranışlar, qeyri-qanuni birlikdə yaşayanlar, vətəndaş nikahından dünyaya uşaq gətirənlər cəmiyyətin əxlaq anlayışını ciddi zədələyir və biz heç nə edə bilmirik.

Bu cür televiziya verilişlərində nümayiş etdirilən, həyat tərzimizə, adət-ənənəmizə, mədəniyyətimizə zidd davranışlar cəmiyyətin tarazlığını pozur. Bu proqramlarda cəmiyyətin mənəviyyatına sanki mina qoyulur, dünənə qədər müqəddəs saydığımız dəyərlər tapdalanır.

Televiziyalar yalnız reytinq və pul qazanmaq istəyi ilə yaratmırlar o proqramları. Hər bir addımın, hər bir kadrın bir məqsədi var. Bu proqramlarda ailə məfhumu dəyərsizləşdirilir, əhəmiyyətsi hesab edilir. Rəsmi nikah olmadan birlikdə yaşanan həyat, zinadan, vətəndaş nikahı ilə doğulan uşaqlar, ailədaxili yasaq münasibətlər, xəyanət kimi anlayışlar təbliğ edilir. Ailəli olduğu halda başqasına qoşulub qaçan qadınlar, arvad-uşağını atıb qızı yaşda biri ilə nikahsız yaşayan kişilər, evdən qaçan qızlar, ərli qadın qaçıran oğlanlar məzlum və haqlı kimi göstərilir. Bu cür iyrənc münasibətləri ən ülvi hiss olan eşqin ayağına yazırlar, bu qədər ucuzlaşdırırlar o hissi.

Axtarış proqramları var, kiminsə itkinini, xəbərsizini tapırlar. Gözəl missiyadır, yaxşı əməldir, amma... Amması göstərilən şou, çıxarılan hənqamədir. Facebook-da dostlar paylaşmışdı yaxın zamanlarda, bu verilişlərdən birindən kadrlar idi. İki bacının 20 ildən sonra itki bacıları ilə görüş səhnəsi idi, itkin bacı kulisdən səhnəyə gəlir, kamera onu müşaiyət edir. İtkini axtaran o biri iki bacı səhnədə gözləməyə səbr edə bilməyib kulisə qaçmaq istəyirlər, aparıcı yapışıb qollarından buraxmır ki, birdən görüş kulisdə səhnə arası xəlvət yerdə baş tutar, camaat görməz, ağlamaz, sponsor da buna görə acığa düşüb pulu kəsər, şou zibilə dönər.

O şouda auditoriya qismində oturanlar, evində o şouya baxanlar, öz sağlamlıqlarını gilə-gilə axıdır gözlərindən. Xalqın damarını tutublar, bilirlər ki, ağlamaqdan ötrü ürəyi gedən insanlar var olduqca bu kimi tamaşalar pul gətirəcək. Öz ata-anasının ilində bir qaşıq halva bişirib yad eləməyənlər 20 ildir ailəsi ilə ünsiyyətini kəsib öz həyatını yaşayan fikankəs əminin, xalanın taleyinə hönkür-hönkür ağlayır. O cür şoular sizin sağlamlığınızı sümürür, göz yaşınızla qidalanır. Niyə buna imkan verirsiniz?

Çox tez-tez efirlərə dəvət edirlər, sağ olsunlar tanıyıb, fikirlərimə hörmət etdikləri üçün. Amma həmişə bu tip verilişlərdən gələn dəvətlərə yox deyirəm, yalnız ciddi müzakirə proqramlarından edilən təklifləri qəbul edirəm. Bu verilişləri izləmirəm, nəinki gedib ekspertlik etmək. Mənim sağlamlığım qiymətlidir, dünyanın heç bir dövləti, məşhurluğu, şousu sağlamlığıma dəyməz. Son bir neçə ayda özünü "sosial layihə" kimi tanıdan 3-4 belə verilişin daimi ekspert təklifini qəbul etməmişəm. Mən o şouda ekspert qismində otura bilmərəm, nə də tamaşaçı kimi izləyə bilmərəm. Onlar insanların sağlamlığı üzərindən milyonlar qazanır, sağlamlığını o proqramlara qurban verənlər isə bunu anlamır.

Bəzən paylaşılır, görürəm sosial şəbəkələrdə. Yaşlı ata bu proqramlardan birinə çıxıb itkin qızını axtarır. Efirdə onu xeyli ağladandan, göz yaşlarını reytinq üçün sümürəndən sonra qızına zəng edib efirə qoşurlar. Qızı da elə o zəngdə, o efirə ötkəm-ötkəm "məni axtarmayın, mən sevgimin dalınca getmişəm" deyir. Qadının nə qədər gözü dönər ki, 2 azyaşlı uşağını atıb başqa kişi ilə qaçar, qeyri-qanuni bir yerdə yaşayar, zəng edər efirdə utancından ikiqat olmuş atasına deyər ki məni axtarmayın, həyatımda başqa biri var. O ataya da əsəbləşməmək olmur, niyə çıxırsan, niyə icazə verirsən o efirdə səni alçaltsınlar, sənin üzərindən şou yaratsınlar.

O verilişlərdə efirə çıxıb azyaşlı övladlarını atıb başqa kişi ilə qaçan arvadına yalvaran, evə qayıtmağa razı salmağa çalışan kişiləri görəndə ürəyim bulanır. "Evimizə qayıt, sən mənə qəbulsan" deyib mənliyini, kişiliyini o şouda satanlar, itirənlər də gördük. Xəyanət üstündə yaxaladığı arvadının video-görüntülərini efirdə nümayiş etdirən, sonra elə o qadınlar ailə olan, evli qalan "kişi"ləri də.

Biz ondan sonra içdən-çöldən çürüməyə başladıq ki, efirlərdə ailə məsələləri müzakirə edilməyə başladı. Kimin əli kimin cibindədir, kim kimin evindən çıxır, kim kimin əri ilə gəzir, kim kimin arvadına sataşır – hamısı efirdə nümayiş etdirilir. Utanmadan, qızarmadan, xəcalət çəkmədən, elə belə də olmalı imiş kimi, elə belədi normalmış kimi

# Azərbaycan-Türkiyə sarsılmaz birliyi ZİRVƏLƏRƏ DOĞRU





*İLHAM ƏLİYEV: "Siz də, mən də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan "Bir millət, iki dövlət" kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq"*

***Bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu sərhəd tanımayan qardaşlıq birliyidir. Və hər iki qardaş dövlətlərin liderləri və xalq bir daha dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrinin təsdiqidir və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar, onlara öz yerlərini göstərirlər.***

Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu. Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyi dəstəyə görə dövlət başçısı sosial şəbəkədə təşəkkürünü bildirib: «Əziz qardaşım, BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə Azərbaycanın yanındadır və haqq işimizdə bizə dəstək verir. Azərbaycan və Türkiyə xoş günlərdə də, kədərli anlarda da daim bir yerdədirlər. Beynəlxalq təşkilatlarda həmişə bir-birimizin haqlı mövqeyini müdafiə edirik. Şuşa bəyannaməsi ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Siz də, mən də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan "Bir millət, iki dövlət" kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq». Bəli, bu gün tarixi sınaqlardan çıxmış güclü Azərbaycan - güclü Türkiyə liderlərinin örnək qardaşlıq birliyi bütün dünyanın diqqətindədir. Sözsüz ki, bu danılmaz faktordur ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bəli, dediyimiz kimi, bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TÜRKİYƏ BURADA YOXSA DA, MƏN BURADAYAM VƏ SİZİN CAVABINIZI VERƏCƏYƏM", SÖYLƏMƏKLƏ DÜNYANI MAT QOYMUŞDU, EYNİ ZAMANDA BÜTÜN TÜRK DÜNYASININ ÜRƏYİNİ FƏTH ETMİŞDİ

Atılan qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirib. İllər öncə Ermənistanın qatil rəhbəri Praqada keçirilən, Türkiyənin təmsil olunmadığı "Şərq Tərəfdaşlığı" sammitində "dərə xəlvət, tülkü bəy" yanaşmasından çıxış edərək qardaş ölkənin ünvanına saxta ittihamlar, hədyanlar söyləyəndə Azərbaycan Prezidenti İlham Əliyev "Türkiyə burada yoxsa da, mən buradayam və sizin cavabınızı verəcəyəm", söyləməklə dünyanı mat qoymuşdu, eyni zamanda bütün Türk dünyasının ürəyini fəth etmişdi. Eyni zamanda Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır", "Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olacaq", mövqeyi ilə Türk birliyi mesajını verdi dünyaya.

Bir sözlə, Əliyev-Ərdoğan birliyi və həmrəyliyi, ümumiyyətlə dövlət başçılarının bir-birinə "qardaşım" deyərək müraciət etmələri həm xalqlarımız, həm də dünya birliyi üçün əsl nümunədir. Və Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluq və qardaşlığı maraqlar, mənfəətlər üzərində qurulmayıb, quru sözlərdən ibarət deyil, sözdə, əməldə, konkret fəaliyyətdədir.

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən də çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan haqqında dediyi fikri bir daha demək yerinə düşər: «Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm".

Bütün bu qardaşlıq münasibəti ulu öndər Heydər Əliyevin söylədiyi «Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir» və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", - kəlamları yaşadığımız günlərdə bir daha tarixiləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi. Və bu gün bu iki güclü Liderlərin şad gündə, dar gündə bir-birinin yanında olması bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan və Türkiyə bundan sonra da bir olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Və 2021-ci il 15 iyun tarixində Şuşada imzalanmış

## ŞUŞA BƏYANNAMƏSİ İKİ QARDAŞ ÖLKƏNİN MÜNASİBƏTLƏRİNİ YENİ MÜSTƏVİYƏ ÇIXARAN TARİXİ VƏ SİYASİ ÖNƏM KƏSB EDƏN MÜTTƏFİQLİK HAQQINDA HÜQUQİ SƏNƏDDİR

«İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətləri rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq». Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib. Dövlətimizin başçısı Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayaraq deyib: "Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük nailiyyətdir, böyük sərvətdir. Həmin bəyannamə bizim qarşımızda yeni üfüqlər açır". İki il əvvəl, 2021-ci il 15 iyun tarixində Şuşada imzalanmış Bəyannamə iki qardaş ölkənin münasibətlərini yeni müstəviyə çıxaran tarixi və siyasi önəm kəsb edən müttəfiqlik haqqında hüquqi sənəddir. Bəyannamədə 100 il bundan əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edilir. Ən əsası isə «Şuşa Bəyannaməsi» ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Bu gün Azərbaycan-Türkiyə münasibətləri özünün ən yüksək zirvəsindədir. Yenidən Türkiyə Prezidenti seçilmiş Rəcəb Tayyib Ərdoğanın ilk dövlət səfərini Azərbaycana etməsi bunun daha bir nümunəsidir. Prezident İlham Əliyev Türkiyə lideri Ərdoğanla birlikdə mətbuata bəyanatında qeyd etdiyi kimi bütün uğurların təməlində Türkiyə və Azərbaycan arasında olan qardaşlıq əlaqələri dayanır. Eyni zamanda, Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi – İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə addımlayıb, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar və dövlət başçımızın dediyi kimi: «Prezident Ərdoğan ilə şəxsi dostluğumuz regional inkişaf və sabitlik baxımından çox mühüm faktordur».

**RƏFİQƏ KAMALQIZI**

***Bəşəriyyət daim inkişaf edir, texnologiyalar təkmilləşir, görülən işlərin hər biri insanların rahat, firavan, sağlam həyat sürməsinə yönəldilib. Azərbaycanda yol infrastrukturuna ayrılan diqqət ölkəmizə müasir görkəm verməklə yanaşı, üzləşdiyimiz nəqliyyat axınında sıxlığın azaldılmasında da mühüm rol oynayır.***



# Müasir Azərbaycan: yeniləşən yol infrastrukturu

Beynəlxalq tələblər səviyyəsində qurulan yollar, inşa olunan yeni körpülər, tunellər əlbəttə ki, piyadaların və sürücülərin rahat hərəkətində önəmli faktordur. Bu gün avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ilbəil artır. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrası nəticəsində ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Həmin yollar hesabına təbii ki, regionların iqtisadi potensialı da yüksəlir. Azərbaycanın bütün bölgələrində yol infrastrukturu müasirləşməkdədir. Tarixdə heç vaxt yol olmayan dağ kəndlərə belə asfalt döşənmiş müasir yollar çəkilir. Əlbəttə ki, yol rahatlıq, iqtisadiyyat və mədəniyyət deməkdir.

## BÖYÜK QAYIDIŞ – YOL İNFRASTRUKTURU

Yola salacağımız il ərzində kifayət qədər yol infrastrukturu ilə bağlı Cənab Prezidentin imzaladığı sərəncamlar diqqətçəkəndir. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl görülən işlər çərçivəsində yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin "Suqovuşan-Kəlbəcər (9 km)Ağdərə-Ağdam avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, otuz üç kilometr uzunluğu olan Suqovuşan–Kəlbəcər (9 km)-Ağdərə-Ağdam avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 4,5 milyon (dörd milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.











Təbii ki, ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlər də bu sıradadır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir. Layihəyə əsasən, yolun 6,7 kilometrliyində "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Füzuliyə səfəri çərçivəsində Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoyulması bu ərazilərdə yol infrastrukturunun tezliklə qurulacağından xəbər verir. 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam-Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yol Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazisindən keçir. Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun inşa edilir.

Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir.

Bu gün Azərbaycanda yeni bir həyat başlayıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlara yenidən nəfəs gəlir və bu məkanların infrastrukturu yenidən qurulur, yeni yolların çəkilişi davam edir. Dövlət başçısının Sərəncamı ilə "Suqovuşan Sərsəng su anbarı Qozlukörpü Kəlbəcər avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncama əsasən səksən kilometr uzunluğu olan Suqovuşan Sərsəng su anbarı Qozlukörpü Kəlbəcər avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 17,0 (on yeddi) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## MÜASİRLƏŞƏN AVTOMOBİL YOLLARI ŞƏBƏKƏSİ

İl ərzində dövlət başçısı tərəfindən yol infrastrukturu ilə bağlı imzalanan sərəncamlar ölkəmizin hər bir bölgəsini əhatə edir. Belə ki, Azərbaycan Prezidenti "Abşeron rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, Abşeron rayonunun Saray qəsəbəsi ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,2 milyon (bir milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Bütün bunlarla yanaşı, "Yardımlı rayonunun Masallı-Yardımlı (44 km)Sırıq-Əfçədulan-Horavar-Əngövül-Zəngələ-Vərov-Keçələkəran avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, Beş min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Masallı-Yardımlı (44 km) Sırıq-Əfçədulan Horavar-Əngövül-Zəngələ-Vərov-Keçələkəran avtomobil yolunun əsaslı təmiri məqsədilə dövlət büdcəsindən 1,7 milyon (bir milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. "Gədəbəy rayonunun Kiçik Qaramurad-Cəfərli-Əyrivəng-Alnabat-Kərimli-İnəkboğan-Göyəmli-Şınıx-Göyəlli-Çobankənd-Şahdağ-Çiçəkli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" və digər sərəncamlar yol infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasına öz töhfəsini verir. Təbii ki, ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən yol infrastrukturu əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən son illərdə ölkəmizdə yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub və bu davamlıdır. Azərbaycanın hər bir bölgəsində, eləcə də paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir.Ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulur ki, bu da ölkəmizin getdikcə artan iqtisadi gücünün göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İki 32-dən böyükdür



***Biz geridə kimsəni buraxmırıq. Əgər o üstəlik əsgərdirsə, Vətənini qoruyandırsa, uğrunda canını fəda edəndirsə onun kimsənin əlində qalmasına heç cür imkan verməriк. Bu, bir prinsipdir, bu, bir xalqın, bir ölkənin fərdinə, vətəndaşına verdiyi dəyərdir. Son 35 ildə başımıza nələrin gəldiyini hər kəs bilir və öz hesabını aparır.***

Bədnam qonşularımızın bizə qarşı qeyri-insani davranışı bütün normaları aşanda bir anda anladıq ki, dünya hələ də yarımçıq məxluqlarla, hələ də ictimailəşmə, sosiallaşma problemi yaşayan ikiayaqlılarla doludur. Bəli, tarix boyu müharibələr olub, bu gün də var. Amma bu müharibələrin də bir qaydası, norması, "qırmızı xətt"i var. Gərək onların heç birini, yumşaq desək, keçməyəsən. Ayaqladınmı, davamı gələcək və bunun bədəlini artıqlaması ilə ödəmək də sənin payına düşər. Ermənistanın son durumu buna bir işarədir...

Ermənistanın Azərbaycan torpaqlarını ələ keçirmək iştahası həmişə olub. Azərbaycan torpaqlarına köçürüləndən başlayıb bu intriqa, düşmənçilik. Özünə yer etməyin, bu ərazilərdə möhkəmlənməyin bir yolunu tapıblar, ya da onlara istiqamət verənlər Azərbaycan türklərinə qarşı amansız olmağı öyrədiblər. Əmrəmüntəzir ermənilər də cəzasız qalacaqlarına əmin olandan sonra bir az daha azğınlaşıblar. Nökəri olduqları çar Rusiyası dağılanda əldə etdikləri torpaqları sovet hökuməti çökəndə genişləndimək istəyən ermənilər bu müharibədə daha qəddar oldular. Arxalandıqları "vur" dedikcə vəhşiləşdilər, heç bir norma, konvensiya gözləmədən ən iyrənc üsullara əl atdılar. Yenicə formalaşan dövlətə qarşı iri dövlətlərin gücünə və dəstəyinə arxalanım həm torpaqlarımızı işğal etdilər, həm də on minlərlə vətəndaşımızı qətlə yetirdilər. Ölənlərin əksəriyyəti isə mülki vətəndaşlar oldu. Minlərlə əsir və girov götürülənlərin sonrakı taleyindən isə indi də xəbər yoxdur. Azərbaycanın həmin vaxt gücü və imkanı olmadığından, o cümlədən həmin dövrdə ölkəyə rəhbərlik edənlərin yarıtmaz əməlləri səbəbindən erməni əsirliyində qalanlar geri qaytarılmadı.

Amma zaman dəyişdi, hakimiyyət əsl sahibinə qaytarıldı. Hakimiyyətin mənbəyi olan xalq da etdiyi seçimini reallaşdırdı, Ulu Öndər, Azərbaycanın xilaskarı Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Sonrakı dönəmdə Onun siyasi varisi İlham Əliyevin prezident seçilməsi isə bütün daşların yenidən düzülməsi, yeni reallıqların yaranması üçün yetərli oldu. Yuxarıda haqqında danışdığımız prinsipiallıq, vətəndaşa qayğı, hər kəsin prezidenti olmaq istəyi özünü hər addımda büruzə verir. Bəli, İlham Əliyevin ilk dəfə ölkə prezidenti seçiləndə dediyi sözlər, fikirlər bu illər ərzində heç dəyişməyib. İlk gün verdiyi söz bu gün də yerinə yetirilir. Əslində "hər bir azərbaycanlının prezidenti olmaq" yükü çox ağırdır. Seçki xatirinə, kreslo əldə etmək məqsədi ilə vədlər verənləri az görməmişik. İlham Əliyevin verdiyi söz, vəd heç kimlə, heç nə ilə müqayisə oluna bilməz. Hələ indiyədək İlham Əliyevin verdiyi sözə əməl etmədiyini görən, bilən heç yoxdur.

İki hadisə ilə kimin kim olduğuna aydınlıq gətirək. 44 günlük müharibənin sonu, Azərbaycan tərəfi elan edir ki, 10 noyabrdan sonra erməni ordusunun bir əsgəri də ərazilərimizdə qalmamalıdır. Könüllü şəkildə getmək istəyənlərə toxunulmayacaq. Amma nə baş verdi? Üçtərəfli Bəyanatdan 15 gün sonra Ermənistan ordusunun 200-ə yaxın əsgər və zabitindən ibarət diversiya qrupu Hadrut istiqamətinə göndərilir. Azərbaycan silahlı qüvvələrinin keçirdiyi antiterror əməliyyatı nəticəsində onların, demək olar ki, hamısı tərksilah edilir və Bakıya gətirilir. Ermənistanın cəhdlərinə baxmayaraq onlar geri qaytarılmır, çünki İrəvan bundan müxtəlif oyunlar qurmağa cəhd edir. Buna baxmayaraq Azərbaycan tərəfi həmin ermənilərin bir qismini humanistlik nümayiş etdirərək azad edir. Ermənilər yenə manipulyasiya etməyə çalışır, arxalandığı dövlət və təşkilatları öz oyununa cəlb edir. Onlar da Azərbaycanın prinsipiallığını gördükdən və Bakının arqumentləri qarşısında aciz duruma düşdükdən sonra bəzi korrektələrlə gündəmə gəldilər, amma...

İkinci bir hadisə isə iki azərbaycanlı hərbçinin yolu azaraq şərti Ermənistan-Azərbaycan sərhədini keçməsi oldu. Dumanda yolu azan əsgərlərimiz üzərində Ermənistan hakimiyyəti o qədər cılız məhkəmə qurdu ki, buna böyük oyunlar ustadı olan Qərb dairələri belə mat qaldılar. Sərhəddən xeyli uzaqda baş verən ölüm hadisəsində əsgərimizi günahlandırmaqla ermənilər əsl xislətini, kibirini, nifrətini ortaya qoymuş oldu. Azərbaycan tərəfi çox çalışdı, məsələnin çözülməsi yollarını qarşı tərəfə bildirsə də İrəvanın öz hərbçilərinin taleyinə nə qədər biganə qaldığını da anladı. Həm də iki hərbçimizin azad edilməsi üçün bütün imkanları bir daha gözdən keçirdi, yollar axtardı. Bundan əvvəl iki hərbçimizə qarşılıq son hadisələrdə ələ keçirilən diversantların dəyişdirilməsi də gündəmə gətirildi. Erməni əsgərlərin valideynləri Ermənistan hökumətinin binası qarşısında özlərini yandırmaq istədiklərini bəyan etsələr də, onların tələbi yerinə yetirilmədi. Azərbaycan silahlı qüvvələrinin sentyabr ayında keçirdiyi antiterror tədbirlərində və ondan sonrakı proseslərdə minlərlə erməni hərbçisini həbs edə bilərdik. Laçın sərhəd keçid məntəqəsindən istifadə edərək Ermənistana gedən ermənilərin kim olduğunu bilmirdik? Bəli, həmin gənclərin əksəriyyəti Ermənistan ordusunun Qarabağda xidmət keçən hərbçiləri idi. Onları saxlamaq fikrimiz olsaydı, bu gün əlimizdə on mindən çox erməni hərbçisi olardı. Amma bunu etmədik, humanistliyimiz bu dəfə də ermənilərin işinə yaradı. Yenə gözlədik ki, Ermənistan rəhbərliyi öz əsgərlərinin taleyinə biganə qalmayacaq. Görünür, yanılmışıq, erməni kibirinin tükəndiyi kimi xam xəyallar qurmuşuq.

Və nəhayət, Azərbaycan tərəfinin apardığı danışıqlar öz bəhrəsini verdi. Geridə, həm də düşmən əlində kimsəni buraxmayacağımızı hər kəs anladı. Ermənistan tərəfi isə əsgərimiz haqqında çıxardığı 20 illik həbs qərarını ömürlük həbslə əvəzləməklə bir daha qəddar olduğunu, həm erməni, həm də azərbaycanlı hərbçilərin onlar üçün heç bir dəyərinin olmadığını üzə çıxardı. İki hərbçimizin azad edilməsi isə Azərbaycan tərəfi, şəxsən İlham Əliyev üçün prinsip məsələsi idi. Hərbçilərimiz nəyin bahasına olursa-olsun azad edilməli, iki ailənin 8 ay axan göz yaşları sevinclə əvəz olunmalı idi. Yəni, iki hərbçimizə qarşılıq ya iki, ya da 32 erməninin azad edilməsinin bir o qədər də fərqi yoxdur. Azərbaycan Prezidenti İlham Əliyevin böyüklüyü sayda, rəqəmdə deyil. Hərbçi mübadiləsində riyazi qanunauyğunluqlar yox, insani dəyərlər, vətəndaşa, bir ailənin övladına verilən qiymət üstündür. Bizim gözümüzdə iki rəqəmi, iki insan taleyi, iki oğul, iki vətəndaş 32-dən çox böyükdür. Bunu yalnız anlayanlar bilir...

***Vəli Vəliyev***

# Ermənilər Ermənistanı niyə tərk edir?

***Qarabağdan köçən ermənilər başda Rusiya olmaqla, xarici ölkələrə köçməyə başlayıb. Rəsmi məlumata görə, Ermənistanı tərk edən Qarabağ ermənilərinin sayı 17 mini ötüb. Bəs sözügedən ermənilər Ermənistanı hansı səbəblərə görə tərk edirlər?***





"Ermənilərin ölkələrini tərk etməsi prosesi artıq neçə illərdir ki, davam edir. Yayılan məlumatlara görə, Qarabağdan köçən ermənilər başda Rusiya olmaqla, xarici ölkələrə getməyə başlayıblar". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elmir Səftərov deyib. E.Səftərov ermənilərin Rusiyaya getmələri məsələsinə münasibət bildirib: "Onların içində minlərlə rus pasportu olan erməni əsilli şəxslər də var. Bu baxımdan düşünürəm ki, rus pasportları olan erməni əsilli şəxslərin Rusiyaya getməsi təbii prosesdir. 44 günlük Vətən müharibəsindən sonra Qarabağdakı ermənilərin müstəqillik əldə etmək ümidləri puç oldu, həm də artıq vəziyyətin gərginləşdiyini və seçim qarşısında qaldıqlarını anladılar. Çünki ermənilər ya Azərbaycan cəmiyyətinə reinteqrasiya olunaraq, vətəndaşlıq almalı, ya da ərazilərimizi tərk etməli idilər. Ona görə də bir vasitə ilə Qarabağı tərk etməyə bəhanə axtarırdılar. Hətta bir qrup rus pasportlu şəxslər bu ilin yayında ərazilərimizi birdəfəlik tərk etdilər. Bu da o anlama gəlir ki, qondarma rejim Qarabağdakı erməniləri şirnikləndirici vasitələrlə orada saxlayırdı".

Şərhçi sözügedən məsələni digər kontekstdən izah edir: "İndiki şəraitdə ermənilərin əksəriyyəti Ermənistanı həm sosial problemlərə, həm də ədalətli mühitinin olmamasına görə tərk edirlər. Ermənistan dövlətinin qeyri-konstruktiv davranışı, region dövlətləri ilə dolaşıq münasibətləri, Qərbə meyillənməsi insanlarda şübhə və narahatlıq yaradır. Ermənilər isə özlərini güvəndə hiss etmədiyi üçün başqa ölkələrə üz tuturlar. Bundan əlavə, Qarabağdan könüllü şəkildə köçənlər Ermənistandan gözlədikləri münasibəti görməlidilər. Onlar ölkədəki problemlərin təkcə humanitar yox, siyasi olduğunun da fərqinə vardı. Əhalinin ölkədən köçməsi həm də, Ermənistan hakimiyyətinin minlərlə insanın məsuliyyətini daşıya bilmədiyini və strateji hədəfinin olmadığını nümayiş etdirdi.

Ermənistan hökumətinin başı hazırda hakimiyyətdə cərəyan edən xaosa yönəldiyi üçün ermənilərin ehtiyaclarının həllində effektiv davranış sərgiləyə bilmir, bu səbəbdən də rəsmi İrəvan beynəlxalq təşkilatlardan imdad diləyir, bütün məsuliyyəti üzərindən atmağa çalışır".

***Çinarə***

# Yaş artdıqca insanlarda niyə yaddaş zəifliyi yaranır?

"Yaş artdıqca insanın psixoloji durumunda dəyişikliklər yaranır. İnsan aşağı yaşlarda səbirli, təmkinli olur. Getdikcə isə daha səbirsiz, aqressiv, hadisələrə daha tez reaksiya verən birinə çevrilir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülnar Orucova bildirib. Psixoloq qeyd edir: "İnsanlar getdikcə travmalar alır, gərginliklər yaşayır. Bunların hamısı insanlara xoş olmayan təəssüratlar yaşadır. Buraya qorxu, narahatlıq, stress, gərginlik, depressiya daxildir. Bu kimi hallar yaşandıqda insan psixologiyası hər dəfə zərər görür. İnsanların psixologiyası hər stressə davam gətirə bilməz. Bəzi insanlar stressin təsirindən infarkt, insult olur. Stress insanın həyatında qalıcı xəstəliklər qoyur. Məsələn, şəkər xəstəliyi ola bilər. Stressdən insanlar əsəbiləşir, gərginləşir, daha çox qida qəbul edir.




Məlum məsələdir ki, ölkədə hər kəs psixoloqa gedib müalicə ala bilmir. Bütün bunların fonunda da insanlar daha ağır travmalara məruz qala bilir. Bütün bunlar insanlarda yaddaş pozğunluğu yaradır. Bəzən insanlar yıxılır, yaddaşını itirir. Bəzi insanlarda isə yaş artdıqca yaddaş zəifləyir. Bu ətraf mühitdə insanlardan, yaşadığımız cəmiyyətdən aldığımız gərginlik, travma, stress faktorları bunu bədənimizdə formalaşdırır. Bəzi insanlar var ki, xərçəngdir, amma mübarizə əzmi var. Bəziləri isə şəkərdir, amma mübarizə əzmi yoxdur. Bu baxımdan yaş artdıqca insanların psixoloji durumunda gərginliklər, problemlər ortaya çıxmağa çalışır.

Yaşlı insanlarda isə problemlərin olması labüddür. Yaş artdıqca insanın bədənində fizioloji olaraq bir sıra problemlər ortaya çıxır. Buraya sümük, ürək-damar xəstəlikləri daxildir. Eləcə də yaddaş problemləri də biruzə verir. Bunlar normaldır. Hazırda yeniyetmələrdə də yaddaş zəifliyini biz görürük. Yeniyetmələr deyir ki, "oxuyuruq, yadımızda qalmır". Ona görə ki oxumaq istəmir, yorulub, həvəsi yoxdur. Səbəblər bunlardır. Çalışmalıyıq ki, sinir sistemimizin qayğısına qalaq. Bəzən biz əsəbiləşirik, elə bilirik ki, bu keçir. Əslində, keçmir. Beynimizdə sinir hüceyrələri ölür. Sinir hüceyrələri ölürsə, onların yeniləri yaranmır. Bu səbəbdən də gələn dəfə daha əsəbi oluruq".

***Ç. Muradova***

# Əfv sərəncamının imzalanması gözlənilləndir?

***"Əlbəttə ki, əfvetmə Prezidentin müstəsna konstitusion səlahiyyətidir. Amma az ehtimal edirəm ki, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərindən əvvəl əfv sərəncamı verilsin". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev deyib. O xatırladıb ki, artıq 2023-cü ildə Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə Prezident tərəfindən böyük miqyaslı əfv sərəncamı imzalanıb: "Bu sərəncam 800-dən çox məhkuma şamil edildi.***

Qəbul edilən bu əfv sərəncamı uzaq keçmişdə deyil, may ayında baş verib. Ona görə də belə qısa müddət ərzində yeni əfv sərəncamının olacağını düşünmürəm".



Ə.Nuriyev sözlərinə davam edərək bildirib ki, əfv sərəncamı yubiley tarixləri olmadığı hallarda bir qayda olaraq Novruz bayramı ərəfəsində həyata keçir: "Digər tərəfdən növbədənkənar prezident seçkiləri çox mühüm siyasi-hüquqi hadisədir. Bu, Azərbaycanın ictimai-siyasi həyatına, eyni zamanda bütövlükdə Cənubi Qafqaz və

AÇIQLAMA



Yaxın Şərq regionuna təsir göstərə bilər. Eyni zamanda, hazırda bütün diqqət bu növbədənkənar prezident seçkilərinə yönəlib. Ona görə də belə bir mühüm siyasi hadisənin baş verəcəyi ərəfədə əfv sərəncamının olacağını məntiqi cəhətdən də mümkün hesab etmirəm. Çünki Əfv Komissiyasının üzvləri bütövlükdə çox mühüm dövlət funksiyalarını həyata keçirən şəxslərdir. Həm bu seçki proseslərini diqqətdə saxlamaq, həm də əfv sərəncamı ilə bağlı iclasların toplanması sadəcə olaraq fiziki baxımdan mümkün deyil. Amma yenə də qərar dövlət başçısınındır. Güman edirəm ki, 2024-cü il ərzində hər hansı bir mərhələdə əfv sərəncamı mümkün ola bilər".

**Ləman**

# "Bu seçki Azərbaycan tarixinə Zəfər seçkisi kimi daxil olacaq"

MÜNASİBƏT

"2024-cü il 7 fevral tarixində Azərbaycanda prezident seçkiləri keçiriləcək. Hər şeydən öncə qeyd etmək lazımdır ki, 1991-ci ildə Sovet dövləti dağılandan sonra Azərbaycan öz tarixində bütün ölkəni əhatə edən prezident seçkiləri keçirə bilmədi. İlk növbədə Ali Məclisdə Azərbaycan Respublikasının Prezidenti seçildiyi üçün bu, ümumxalq seçkisi sayılmırdı. Sonrakı dövrdə isə Azərbaycan torpaqlarının 20%-i işğal olunduğuna görə həmin ərazilərdə prezident seçkilərı keçirmək mümkün olmadı. Ona görə də 2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra 30 il düşmən işğalı altında qalan torpaqlarımız azad edildi və Ermənistan darmadağın edildi. Təbii ki, işğaldan azad olan torpaqlar, eyni zamanda müvəqqəti olaraq erməni separatçılarının yerləşdiyi ərazilər qaldığına görə 2023-cü ilin 19-20 sentyabr tarixlərində antiterror tədbirləri nəticəsində düşmən ordusu məhv edildi. Azərbaycan öz tarixində ilk dəfə olaraq bütövləşdi, suverenliyi bərpa olundu və bütün Azərbaycan torpaqlarında prezident seçkiləri keçirmək mümkün oldu. Buna görə də 2024-cü il 7 fevral tarixində keçiriləcək seçki Azərbaycan tarixində ilk dəfə olaraq bütün bölgələri əhatə edəcək". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib.

Deputat xatırladıb ki, 1992-ci ildə keçirilən seçkilər zamanı Qarabağın böyük bir hissəsi düşmən işğalı altında idi: "1993-cü ilin seçkilərinə qədər bu işğal ölkə ərazisinin 20%-ni əhatə etdi. Bir milyona qədər insan qaçqın və məcburi köçkün həyatını yaşamağa məcbur edildi. Amma 2024-cü ildə keçiriləcək seçki isə məğlubların seçkisi deyil. Bu, qaliblərin seçkisidir. Azərbaycan xalqını qalib xalq edən 2020-ci ilin 44 günlük Vətən müharibəsidir. Ona görə də 2024-cü ilin fevralında keçiriləcək seçki Azərbaycan tarixinə Zəfər seçkisi kimi daxil olacaq. Azərbaycanın artıq işğal altında qalan torpağı yoxdur. Minlərlə azərbaycanlı artıq Qarabağın yenidən bərpasının nəticəsində öz yurdlarına qayıdıb. İşğaldan azad olunmuş torpaqlarda 20 mindən çox insan bu seçkidə iştirak edəcək.

Növbədənkənar seçki qeyri-adi bir seçim deyil. Dünyanın hər yerində belə seçki keçirilir. Təbii ki, Azərbaycan dünya təcrübəsindən istifadə edir. Amma bu, o demək deyil ki, dünyada tətbiq olunduğu üçün bu seçki formasını tətbiq edirik. Qalib Azərbaycan həm bütün ərazisində ehtiyac olunduğuna görə, həm dünya təcrübəsinə istinad etdiyi üçün bu seçkinin keçirilməsini məqsədəuyğun bilir".

A.İsgəndərov sözlərinə davam edərək qeyd edib ki, dədə-baba yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları daim öz torpaqlarına qayıtmaq ehtimalı haqqında düşünürdülər: "Ulu Öndər Heydər Əliyev dönə-dönə qeyd edirdi ki, işğal altında olan bütün torpaqlarımız azad ediləcək. Amma dünyanın bu məsələyə münasibəti səmimi deyildi. Kağız üzərində bu işğalı qəbul edir, amma reallıqda Azərbaycana iki xalqın dost münasibətində yaşaması üçün sülh elan edərək torpaqları ermənilərə verməyi təklif edirdi. Təbii ki, nə Azərbaycan dövlətinin, nə xalqın, nə də ordumuzun heç nə yadından çıxmamışdı. Xalq bu seçkiyə bir daha dünyaya öz dövlət başçısına, Qarabağın xilaskarına inandığını, Ali Baş Komandan İlham Əliyevin bütün xalqı birləşdirə bildiyini bəyan etmək üçün gedəcək.

Onu da qeyd etmək lazımdır ki, bu gün rəy sorğusu aparılsa, iştirakçıların 99,9%-i "Mən öz seçimimi artıq etmişəm" cavabını verəcək. Çünki 20 ildə Prezident İlham Əliyevin etdikləri Azərbaycan xalqını tam mənada qane edir. Ən əsası da qalib xalqın qalib Ali Baş Komandanı və dövlət başçısı olmalıdır".

"Azərbaycan bu illər ərzində iqtisadiyyatın inkişafı baxımından dünyanın ən qabaqcıl dövlətləri sırasına daxil olub. Qarabağda gecə-gündüz gedən quruculuq



işləri Azərbaycan xalqının gücü hesabına həyata keçirilir. Bu islahatlar onu göstərir ki, həyatın elə bir sahəsi yoxdur ki, orada xalq birinci olmasın. Bu uğurun nəticəsidir ki, bu gün Azərbaycan həm Qərbdə, həm türk dünyasında, həm müsəlman şərqində, həm də Mərkəzi Asiyada ən nüfuzlu dövlət kimi tanınır. Azərbaycan Ordusu dünyanın ən güclü ordularından, iqtisadiyyatımız ən inkişaf etmiş iqtisadiyyatlarından biridir. Azərbaycanda neft-qaz sənayesi, qeyri-neft sektoru o dərəcədə inkişaf edir ki, bugünkü gündə dünyanın çətin vəziyyətdə olan dövlətlərinə yardım göstərir. Bu onu sübut edir ki, ölkədə bünövrəsi Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan islahatlar həyatın bütün sahələrində uğur qazanıb. Təsadüfi deyil ki, 2003-cü ildə Azərbaycanın dövlət başçısı xalqa müraciət edərkən deyirdi ki, mən ona, yəni İlham Əliyevə özüm qədər inanıram. 2003-cü ildə xalq İlham Əliyevə səs verdi. Həmin tarixdən bugünədək Azərbaycan bütün çətinliklərdən, ağrılı günlərdən keçərək qalib dövlətlər sırasına daxil oldu. Bu mənada 2024-cü ilin seçkilərinin nəticələri artıq bu gündən məlumdur. Xalq birmənalı olaraq Ali Baş Komandan İlham Əliyev ətrafında birləşib.

Bu gün Azərbaycan dövləti dünyaya bəyan edir ki, hər bir seçkidə iştirak etmək üçün həm seçici, həm də prezidentliyə namizəd üçün bərabər şərait yaradılıb. Azərbaycan bugünkü gündə dostunu, düşmənini də, uğurunu da, nöqsanı da, çatışmazlıqları da yaxşı görür. Azərbaycanı daha da inkişaf etdirmək üçün hər şey məlumdur. Bu, yolumuz Heydər Əliyev yolu, ideologiyamız azərbaycançılıq ideologiyası, dövlət başçımız da cənab İlham Əliyevdir",- deyə o əlavə edib.

**L. Sərraf**



Mətanət Məmmədova

# Biz sürücüyə, sürücü bizə?..

***Şəhərimizdəki işıqforsuz piyada keçidlərindən istifadə edənlərdən biri kimi son vaxtadək hər dəfə o xətlərin üzərində dəli bir ağlamaq keçirdi könlümdən. Soruşsaydınız ki, nə üçün? Deyərdim ki, sürücülərə - qayda-qanunlardan, cərimələrdən xəbərsiz sürücülərin gününə ağlamaq istəyirdim. Deyirdim, İlahi-pərvərdigar, bu sürücülər nə vaxt qayda-qanuna riayət edəcəklər. Bu sürücülər, əlbəttə, hamısı deyil, lakin əksəriyyəti bu maşınları nə vaxt adam kimi sürəcəklər.***

İndi isə elə o xətlərin üzərində gülməyə başlamışam. Desəniz ki, nəyə gülürsən? Deyərəm ki, özümə gülürəm. Nə üçün gülürəm, bilirsiniz, keçiddə xəttin üzərində dayanıb sürücüyə yol verdiyim üçün. Onun da məsuliyyətsizcəsinə məni gözlətməsinə gülürəm. Sürücü bir az kənardan görür ki, biz piyada keçidinin düz ortasındayıq, daha da sürətini artırır ki, qarşımızdan keçsin. Biz də qalırıq düz yolun ortasında ki, sürücü bəy, sürücü xanım keçsin, biz sonra yola davam edək.

Məktəbin qarşısı, ictimai yaşayış binasının önü və sair, hara olursa-olsun bəzi sürücülər üçün heç əhəmiyyəti yoxdur, bizi gözlədib özləri keçəcəklər. Əslində biz onlardan qabağa düşə bilərik. Lakin bu sonuncu keçidimiz olar. Bizi asfalta elə yapışdırarlar ki, tikəmizi yerdən qoparmaq olmaz. Biz hüquqlarımızı bilirik. Bilirik ki, piyada keçidinə yaxın avtomobili idarə edən sürəti azaltmalı, dayanıb piyadanın keçməsini gözləməlidir.

"Yol hərəkəti haqqında" Qanunun 54-cü maddəsinin I hissəsində də deyilir ki, əgər piyada keçidində nəqliyyat vasitələrinin hərəkəti nizamlayıcı tərəfindən və ya svetofor vasitəsilə nizamlanmırsa, sürücü keçidə yaxınlaşarkən sürəti lazımınca azaltmalıdır ki, yolu keçməyə başlamış piyadaları təhlükəyə məruz qoymasın. Əgər piyada keçidə daxil olmuşdursa və ya daxil olmaqdadırsa, sürücü nəqliyyat vasitəsini dayandırmalı və piyadaya yol verməlidir. Sürücünün piyadaya yol verməli olduğu xüsusi bir hal isə adı çəkilən qanunun 75-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulur: sağa və ya sola dönən sürücü dönəcəyi yolun hərəkət hissəsini keçməkdə olan piyadalara yol verməlidir. Bu normadan göründüyü kimi, yolayrıcında dönən sürücü hətta döndüyü yolda piyada keçidi olmasa da, piyadaya yol verməlidir.

"İnzibati Xətalar Məcəlləsi"nin 330-cu maddəsinə əsasən isə həm nizamlanmayan piyada keçidlərində, həm də sağa və sola dönən zaman piyadaya yol verilməməsi 50 manat cərimə olaraq qiymətləndirilir. Bu qaydalardan və cərimələrdən piyadaların xəbərsiz olanı olar ki, sürücülər deyillər. Bəs belə isə nə üçün bilmək istəmirlər ki, kim kimi gözləməli, kim kimə yol verməlidir? Əksinə, piyada keçidinin ortasında maşını üzərimizə sürür, əsla dayanmaq fikirləri yoxdur. Və yaxud da ki, qarşıdan qəflətən adam çıxar, fikrini ağıllarına belə gətirmirlər?

Sürücülər bu barədə düşünmədikcə biz hələ ağ xətt üzərində çox qara düşüncələrə dalacaq, ya ağlayacaq, ya da güləcəyik. Öz yolumuzda sürücülərə yol verməyimiz çox gülməli deyilmi?..

# Qərbdən Ukraynaya şübhəli dəstək









***Ukrayna ABŞ-ın rəhbərlik etdiyi Qərbin ona müharibədə ən azı kiçik qələbə əldə etməyə dəstək verəcəyi ümidi ilə yaşayır. 2009-cu ildən başlanan və 2014-cü ildə Maydan hərəkatı ilə kulminasiya nöqtəsinə çatan “mərkəzdənqaçma” prosesi gözlənilən istiqamətdə inkişaf etmədikcə Kiyevin ümid dolu baxışlarında bir nigarançılıq tüğyan edir. Qərb Ukraynanın Rusiya ilə başlatdığı müharibədə ona lazımi dəstəyi vermir. 60 milyard dollarlıq yardım paketi isə hər keçən gün unudulur, məsələyə yenidən baxılır, fərqli qərar verilir. Avropa İttifaqı ölkələri Brüsselin son iki ildə sadiq qalmağa çalışdığı “Ukrayna və onun xalqına nə qədər lazımdırsa” dəstək şüarının həyat qabiliyyətinə getdikcə şübhə ilə yanaşır. Münaqişə Avropa liderləri üçün prioritet olmaqdan çıxıb.***

Aİ-nin yüksək rütbəli rəsmiləri və diplomatları ictimaiyyətin qarşısında deyirlər ki, Qərb Ukraynanı dəstəkləməkdə davam edir, lakin birliyə daxil olan ölkələrin çoxu şəxsi olaraq etiraf edir ki, blok liderlərinin əksəriyyətinin gündəlik həyatında müharibə artıq əsas prioritet deyil. 2024-cü ilin iyun ayına təyin edilmiş Avropa Parlamentinə seçkilər yaxınlaşdıqca, Avropa liderləri Ukraynaya üstünlük verməkdən ehtiyatlanır və diqqəti vətəndaşların gündəlik qayğılarına yönəltməyə çalışırlar. Bir yüksək səviyyəli avropalı diplomatın sözlərinə görə, Ukraynanın Aİ-yə qoşulması ilə bağlı fikirlərini dəyişmiş kimi görünən yeni bir qrup ölkələr var. O, bunu xüsusilə, Bosniya və Herseqovinanın icmaya daxil edilməsi məsələsində sonrakı addımlarla Ukraynanın bloka mümkün üzvlüyünü müəyyən edən Avstriyanın mövqeyi ilə əlaqələndirib. Bu arada “Rusiya xüsusi hərbi əməliyyatın dəyişməz qalan məqsədlərinə çatanda Ukraynada sülh olacaq”, deyə Rusiya prezidenti Vladimir Putin birbaşa və mətbuat konfransında bildirib: “Məqsədlərimizə çatanda sülh olacaq. Onlar dəyişmir. Mən sizə danışdıqlarımızı xatırladacağam - Ukraynanın denazifikasiyası və demilitarizasiyası, onun neytral statusu”.

### Zelenskiyə şifahi dəstək

Ukrayna prezidentinin ABŞ-a səfərinin nəticələri əsasən “müsbət siqnallarla” məhdudlaşıb. Ukrayna heç vaxt döyüşü dayandırmayacaq, lakin Vaşinqtonun əlavə yardımı olmadan “öz qətiyyətli və yaxşı silahlanmış düşməninə” labüd təslim olacaq. Amerika mediası xəbər verir ki, bu barədə Ukrayna lideri Vladimir Zelenski Konqres üzvləri ilə bağlı qapılar arxasında görüşərkən danışıb. Lakin respublikaçılar və demokratlar arasında partiyalararası çəkişmələr səbəbindən hələ də 61 milyard dollar məbləğində yardım barədə razılığa gəlmək mümkün deyil: məsələ 2024-cü ilə qədər təxirə salınıb. Bu arada, Moskvada səfərin nəticələri ilə bağlı öz qənaətlərini ediblər və qeyd ediblər ki, Birləşmiş Ştatlar “Kiyevdən olan dilənçidən bezib” və “Rusiyanın döyüş meydanında strateji məğlubiyyətindən danışmağı dayandırıb”.

Vladimir Zelenskinin Vaşinqtona səfərindən sonra əsas xəbər ABŞ-ın Ukraynaya 200 milyon dollar məbləğində yardım ayırması olub. ABŞ Dövlət Departamentinin verdiyi məlumata görə, razılaşdırılmış paketə hava hücumundan müdafiə sistemləri üçün sursat, hava hücumundan müdafiə sisteminin komponentləri, əlavə döyüş sursatları, yüksək mobil artilleriya raket sistemləri, artilleriya sursatları (155 mm və 105 mm daxil olmaqla), yüksək sürətli anti-radar raketləri, zirehli deşici sursatlar, kiçik silah sursatları, silah dəsti, HESCO maneələri və ehtiyat hissələri, dəstək avadanlığı, xidmətlər daxil olacaq. Amma söz Konqres tərəfindən çoxdan razılaşdırılmış vəsaitlər çərçivəsində təchizatdan gedir. Onlardan yalnız bir neçəsi qalıb. Bir ay əvvəl Ağ Ev bəyan etmişdi ki, ehtiyatda təxminən 1 milyard dollar var.

Xatırladaq ki, ABŞ-da hazırda diqqət mərkəzində olan prezident Co Baydenin təklif etdiyi əlavə maliyyə paketinin nəzərdən keçirilməsidir. Milli təhlükəsizlik üçün nəzərdə tutulan 106 milyard dolların 61 milyard dolları Ukraynaya ayrılmalıdır, yerdə qalan pulun isə İsrail və Tayvanın dəstəklənməsinə, eləcə də ABŞ-ın cənub sərhədinin möhkəmləndirilməsinə xərclənməsi planlaşdırılır. Ağ Evin fikrincə, xərclərin belə bir səbətdə birləşdirilməsi Ukraynaya yardımın əleyhdarlarına (lakin eyni zamanda, məsələn, İsrailə yardımın tərəfdarlarına) sənədin qarşısını almağa imkan verməyəcək. Bununla belə, təşəbbüsün nəzərdən keçirilməsi hələ də dayanıb.

Ağ Ev və Demokratlar tərəfindən planlaşdırıldığı kimi Vladimir Zelenskinin səfəri respublikaçıları bu pulu ilkin şərt olmadan ayırmağa razılaşmağa təşviq etməli idi. Senatın Demokratlar Partiyasının lideri Çak Şumerin çərşənbə axşamı Ukrayna lideri ilə görüşündən sonra verdiyi şərhlər nikbinliyə səbəb olub. O, görüşü “güclü” adlandırıb. Lakin, sonda, “Punchbowl News” portalının amerikalı qanunvericilərə istinadən verdiyi məlumata görə, Ukrayna prezidentinin səfəri heç nəyi həll etməyib. Vladimir Zelenski çərşənbə axşamı Nümayəndələr Palatasının spikeri respublikaçı Mayk Consonla da görüşüb. Yarım saatlıq danışıqların sonunda spiker bildirib ki, Amerikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün tədbirlər paketi razılaşdırılmayana və Ağ Ev “aydın strategiyanın formalaşmasına imkan verənə qədər Ukrayna Konqresdən kömək gözləməməlidir”.

Senatda keçirilən görüşdə Ukrayna prezidentinə də boş ümidlər verilməyib. Belə ki, bir neçə respublikaçı senator, o cümlədən Ukraynaya yardımın qızğın tərəfdarı Lindsey Graham bildirib ki, Kiyevin Meksika sərhədində davam edən miqrasiya böhranı ilə heç bir əlaqəsi olmasa da, bu hadisələr ABŞ-ın Ukrayna ilə münasibətlərinə təsir edir. Eyni zamanda, senator Qrem aydınlaşdırıb ki, problemin həlli üçün ukraynalının deyil, Amerika prezidentinin iştirakı lazımdır: o, sərhədlə bağlı danışıqlarda birbaşa iştirak etməlidir, çünki (Respublikaçıya görə) Demokratların müzakirəçisi Chris Murphy bunun“faydasız olduğunu sübut edib”. Qrem demokrat həmkarlarını konsensus tapmaqdansa, onun partiyasının mütərəqqi qanadı tərəfindən razılaşmanın necə qəbul ediləcəyinə daha çox diqqət yetirməkdə ittiham edib.

“Punchbowl News” konqresdəki bir çox mənbəyə istinadən xəbər verdikdə, Ukraynanın başqa bir uzunmüddətli tərəfdarı, Respublikaçı Azlıqların lideri Mitch McConnell, çərşənbə axşamı partiya üzvləri ilə Senatda qapalı nahar zamanı Ukraynaya yardım və immiqrasiya siyasəti ilə bağlı danışıqlar apardığını etiraf etdikdə ikitərəfli razılaşmanın son şansı itib. Yəni, bayramların sonuna qədər vəsait heç yerə köçməyəcək və yanvar ayına təxirə salınacaq.

Ukrayna nümayəndə heyəti ilə görüşdən sonra qısa mətbuat konfransı keçirən Co Bayden razılığa gəlmək ümidini itirməsə də, Konqresdə baş verənlərdən qıcıqlandığını gizlətməyib. O, “Ukraynanın maliyyələşdirilməsinin radikal Respublikaçı sərhəd proqramının girovluğunda olmasını” qəbuledilməz adlandırıb. Eyni zamanda, cənab Bayden respublikaçıları de-fakto Kremllə yanaşı oynamaqda ittiham edib və hətta adı açıqlanmayan “Kreml tokşousu”ndan sitat gətirib. Mühafizəkarlar Ukraynaya yardımın qarşısını almasını alqışlayıblar. Amerika liderinin sözlərinə görə, onun ”komandası Senatda Demokratlar və Respublikaçılarla birlikdə həm siyasət dəyişiklikləri baxımından, həm də sərhəddə kompromis əldə etmək üçün lazım olan resursları təmin etmək baxımından ikipartiyalı kompromis tapmağa çalışır”.

Öz növbəsində Vladimir Zelenski qeyd edib ki, danışıqlar zamanı o, “müsbət siqnallar” alıb. ”Ancaq biz bilirik ki, sözləri və nəticələri ayırmaq lazımdır” deyib. Bu arada “Washington Post” qəzeti yazıb ki, cənab Zelenski senatorlarla bağlı qapılar arxasında danışıb. Jurnalistlərin fikrincə, Ukrayna lideri həmsöhbətlərinə bir mesajı çatdırmağa çalışıb: onun ölkəsi “işğalçı rus qoşunlarına qarşı mübarizədə heç vaxt geri çəkilməyəcək”, lakin əlavə yardım olmadan “münaqişə daha qəddar olacaq, çünki Ukrayna ordusu qətiyyətli və yaxşı silahlanmış düşmənə qarşı labüd mövqelərini itirəcək”.

Moskva Vladimir Zelenskinin Vaşinqtona səfərinin nəticələrini onun sarsıdıcı məğlubiyyəti kimi qiymətləndirib. “Zelenskinin səfəri boş oldu. Ukraynanın ABŞ-ın təhlükəsizliyindən daha vacib olduğuna inandırmaq mümkün olmadı. Kiyevdən gələn dilənçilərdən hamı yorulub”, - Rusiyanın ABŞ-dakı səfiri Anatoli Antonov bildirib. Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev isə Co Baydenin sözlərini o ruhda şərh etdi ki, guya Vaşinqton artıq Ukraynanın öz mövqelərini qaytarmasını arzulamır (“Sizin üçün əks-hücum yoxdur. İrəliləyiş yoxdur”) – onlar əllərində olanı qorumaq istəyirlər.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov Federasiya Şurasında keçirilən hökumət saatında bu ideyanı inkişaf etdirərək qeyd edib: “Qondarma əks-hücum əməliyyatına bağlanan ümidlərin süqutundan sonra Vaşinqton Rusiyanın döyüş meydanında strateji məğlubiyyətindən danışmağı dayandırıb və ortaya çıxanlara üz tutub. Zelenskinin ora növbəti səfəri zamanı yeni bir mantra: Putinin Ukraynada qalib gəlməsinə imkan verməyin, əks halda onlar bütün NATO-nu fəth edəcəklər, sonra da deyirlər ki, Amerika kənarda oturmayacaq”. ”Lakin onların yanaşmalarının mahiyyəti dəyişmir - Rusiyanın inkişafına xələl gətirməyə çalışmaq üçün Kiyevli müştərilərini xaricdəki ağalarının maraqları naminə ölməyə və ölməyə məcbur etmək”, - deyə nazir yekunlaşdırıb. Bəli, Qərb Ukraynada başlatdığı oyunu yarıda buraxmaq istəyindədir. Amma bunu necə və nə vaxt edəcəyini müəyyənləşdirə bilmir, daha doğrusu kompromis yoxdur. Qarşıda isə ukraynalıları yeni itkilər gözləyir.

**V.VƏLİYEV**

RAKURS

# Dağıdıcı müxalifət təxribatlara hazırlaşır



***Azərbaycan dövləti və xalqı Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün qarşıya qoyulan məqsədlərinə nail olub. 44 günlük Vətən Müharibəsində və 2023-cü ilin sentyabrın 19-da başlayan və cəmi 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə Azərbaycan xalqı özünün Lideri İlham Əliyevin böyük Sərkərdəlik məharəti ilə 30 il erməni işğalı altında olmuş torpaqlarını azad etməklə daha bir möhtəşəm zəfərə imza atdı.***

2023-cü ilin oktyabrın 15-də Prezident İlham Əliyev Xankəndi şəhərinin meydanında üçrəngli Azərbaycan dövlətinin bayrağını ucaltmaqla ərazi bütövlüyümüzü və suverenliyimizin bərpası yüksək hərbi, siyasi, diplomatik bacarıqla təmin olunduğu nümayiş etdirildi. Təbii ki, bütöv Azərbaycan daxilində yeni hədəflərin və məqsədlərin həyata keçilməsi zəruridir. Bu baxımdan, Prezident İlham Əliyevin Sərəncamı ilə 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar Prezident seçkiləri yeni hədəflərə doğru atılacaq əhəmiyyətli addımlardan olacaq.

### 7 fevral seçkiləri zəfər seçkisi olacaq

30 ildən sonra ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunduğu bir şəraitdə xalq özünün Prezidentini seçəcək. Söz yox ki, 44 günlük Vətən Müharibəsində qazanılan qələbə və Azrbaycan dövlət maraqlarının dünya miqyasında təmin olunması baxımdan görülən və həyata keçirilən fundamental işlər 7 fevral seçkilərinə təsir edəcək əsas amillərdən olacaq. Daha doğrusu, qədirbilən Azərbaycan xalqı özünün Lideri Cənab İlham Əliyevin xidmətlərini böyük ehtiram və sayqı ilə dəyərləndirib, seçki günü buna müvafiq olaraq Ona səs verəcəkləri şübhəsizdir. Nəzərə almaq lazımdır ki, Qarabağ zəfərindən sonra Prezident İlham Əliyevin Azərbaycanda və beynəlxalq aləmdə nüfuzu ən yüksək həddə artıb. Əksər ölkələrin dövlət və hökumət başçıları Prezident İlham Əliyevin nüfuzunun həddindən artıq yüksəlməsinə qibtə ilə yanaşır, bəzən paxıllıq hissi nümayiş etdirirlər.

### Dağıdıcı müxalifət hər rayondan 200 imza toplaya bilmirsə, deməli, heç kimə lazım deyil

Bu gün nəinki Azərbaycanda, ümumiyyətlə, dünya miqyasında nüfuz və hörmət baxımından Prezident İlham Əliyevlə rəqabət apara biləcək siyasətçi yoxdur. Xalq bunun qarşılığında bütün seçkilərdə olduğu kimi, 7 fevral 2024-cü il prezident seçkilərində də Yenilməz Sərkərdə, Prezident İlham Əliyevə səs verməklə tərəqqiyə, inkişafa, təhlükəsizliyə, başlıcası firavan Azərbaycanın gələcəyinə səs vermiş olacaq. Bu məqamda, müxalifətin xüsusilə də, dağıdıcı müxalif ünsürlərin seçkilərlə bağlı hay-küy qaldırmaları mənasız və əhəmiyyətsiz hayküydən başqa bir şey deyil. Onlar iddia edirlər ki, guya vaxtın azlığı imzatoplamaya və təbliğat -təşviqat kampaniyasının lazımi səviyyədə aparılmasına təsir göstərəcək. Əvvəla 11 milyona yaxın ölkə əhalisi arasından 40 min imzanı toplamaq o qədər də çətin deyil, təbii ki, ciddi sosial dayaqlara malik siyasətçi olsalar. Digər tərəfdən, AXCP, Milli Şura kimi qurum təmsilçiləri hər dəfə bəyan edirlər ki, respublikanın bütün rayon və şəhərlərində təşkilatları mövcuddur. Deməli, ortalama ölkə üzrə 40 min imzanın toplanması üçün hər rayondan 200 imza lazımdır. Əgər 200 imzanı toplaya bilməyəcəklərsə, deməli, AXCP, Milli Şura kimi qurumların funksionerləri siyasətdən gedib, bacara biləcəkləri işlə məşğul olsunlar. Çünki artıq bu fakt onu təsdiq edir ki, siyasət onlarlıq deyil. Hələlik isə, görünən ondan ibarətdir ki, dağıdıcı müxalif ünsürlər, o cümlədən Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, Fuad Qəhrəmanlı və digərləri böhtanlar və anti-Azərbaycan dairələrinin sifarişlərini həyata keçirməyə cəhd edirlər. Gah sosial şəbəkələrdə yalan və böhtanlar səsləndirir, gah da boşboğazlıqdan ibarət olan iddialar irəli sürürlər. Lakin bunların heç birinin effekti olmayacaq. Çünki xalqın və dövlətin maraqlarının satılması əvəzinə, şəxsi mənafelərin həyata keçirilməsi tarix boyu heç kəsə nəsib olmayıb. Ona görə də, milli maraqların satılması qarşılığında müxalifət uğur qazana bilməyəcək. Əksinə, onların cəmiyyətin gözündən düşmələri daha dərin köklərə malik olacaq. Məhz bu amil də onların növbəti seçkilərdə məğlubiyyətlərini şərtləndirəcək.

### Zəfər seçkisi dağıdıcı müxalifəti arxivə göndərəcək

Uzun illər siyasətdə olmalarına baxmayaraq pozucu və məkrli siyasətləri dəyişməmədiyindən, dağıdıcı müxalifət bütün seçkilərdən üzüqara çıxıb. Bu da ondan irəli gəlir ki, onlar bu günə qədər xalqa, dövlətə fayda verə biləcək ideyalar irəli sürə bilməyiblər, faydalı layihə ilə çıxış etməyiblər. Onlar ancaq, həyata keçirilən islahatları, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi məqsədilə görülən tədbirləri gözdən salmağa çalışıblar. Bəzən uzağa hesablanan, ağılsız iddialarla çıxış edərək, iqtisadi və kadr islahatlarının onların açıqlamalarından sonra reallaşdırıldığını bildirirlər. Bu dardüşüncəli məxluqlar anlamırlar ki, hələ 2018-ci il prezident seçkiləri ərəfəsi Cənab İlham Əliyev növbəti illərin islahatlar illəri olacağını bəyan etmişdir. Verilən vədlər, irəli sürülən ideyalar reallaşdırıldı. 2019-cu ildən başlayaraq, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırıldı. Əhalinin banklara olan borcları dövlət hesabına silindi, sosial evlər tikilərək əhalinin istifadəsinə verildi, genişmiqyaslı iqtisadi islahatlar aparıldı və bu gün də proses davam etdirilməkdədir. Təbii ki, sosiai, iqtisadi islahatlar dərinləşdikcə insanların sosial rifahı, güzəranı da yaxşılaşır. Dağıdıcı müxalif ünsürlər isə, ölkədə həyata keçirilən inkişafdan ciddi narahatlıq keçirirlər və müxtəlif təxribatları ilə iqtisadi uğurlara kölgə salmağa çalışırlar. Xüsusilə, dağıdıcı müxalifəti yarıtmaz ünsürləri olaraq tanınan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, Fuad Qəhrəmanlı və digərləri sifarişlərə və tapşırıqlara uyğun fəaliyyətlərini qurmaqla milli maraqlarımıza zərbə vurmağa çalışırlar. Lakin onların hay-küyləri və planlaşdırdıqları təxribatlar nəticə verməyəcək. Çünki xalq-hakimiyyət birliyi, xüsusilə də, xalqın Prezident İlham Əliyevə olan sevgisi, yüksək inam və etimadı istənilən pozucu qüvvənin planlarını alt-üst etməyə imkan verir. Ona görə də birmənalı şəkildə demək olar ki, 7 fevral dağıdıcı müxalifət üçün son seçki olacaq. Bunu həm də dağıdıcı müxaliflərin siyasətdə qalma müddətinin başa çatması günü kimi də qeyd etmək lazım gələcək. Çünki seçki məğlubiyyətindən sonra dağıdıcı müxalifət arxivə göndəriləcək.

***İLHAM ƏLİYEV***

# DİQQƏT: 2024-də hans rəng seçimi trend olacaq?




2024-cü ildə trend olacaq rəng seçimi açıqlanıb. SİA xarici mətbuata istinadən xəbər verir ki , 2024-cü ilin rəngi "Pantone" rəng institutu tərəfindən "Şaftalı tükü" rəngi olaraq müəyyən edilib. Bu rəng sülh və əmin-amanlığın göstəricisidir.

"Pantone" rəng eksperti Letrik Eisman deyir: "Həyatımızda çox qarışıqlıq yaşayırıq və bizi qidalandıran rəngə ehtiyacımız var. Bu rəng isti və rahat bir tondur. Bu ton məxmər kimi yumşaq və mehriban rəngdir, zəriflik və şəfqət hissi verir. Eyni zamanda ruha, zehnə, bədənə və ürəyə toxunur. Ön plana çıxmağa başlayan və ilin dəbli rəngləri çərçivəsində bunu təbiətə dönüş və romantika da adlandırmaq olar. Dəb rəngləri elədir ki, gündəlik iş həyatımızda və xüsusi dəvətlərdə istifadə edə bilərik. 2024-cü ilin rəngini ən dəbli saç rəngləri və aksesuar rəngləri kimi də istifadə edə bilərsiniz".

***Sevilin Abbasova***



Elçin Bayramlı

# Su müharibəsi: Bizi nə gözləyir?

***Dünyada su problemi getdikcə kəskinləşir. Qlobal iqlim dəyişiklikləri və ekoloji proseslərin pozulması nəticəsində istiləşmə və quraqlıq artır, çaylar göllər quruyur, suya tələbat isə davamlı artır. Artıq bir sıra ölkələrdə ciddi problem yaranıb, hətta Yaxın Şərqdə və Şimali Afrikada transsərhəd çayların suyundan istifadədə narazılıqlar artıb, ölkələr müharibə həddinə gəlib.***

Azərbaycanda da bu sahədə vəziyyət ürəkaçan deyil və ciddi tədbirlər görülməsi vacibdir. Quraqlığın artacağı təqdirdə Azərbaycan ciddi su problemi gözlənilən ölkələr siyahısındadır. Digər ölkələrlə müqayisədə bizdə əraziyə və əhaliyə nisbətdə su ehtiyatlarının faiz göstəriciləri çox aşağıdır. Ölkənin şirin su ehtiyatlarının 70 faizə qədəri ölkə hüdudlarından kənarda formalaşır və transsərhəd çaylar vasitəsilə ölkəmizə daxil olur.

Bu isə o deməkdir ki, qlobal su böhranı dərinləşərsə, qonşu ölkələrdən gələn su mənbələrindən su götürmək mümkün olmaya bilər. Bu vəziyyətdə qonşu ölkələr transsərhəd çaylardakı su ehtiyatının hamısını özlərinə sərf edəcəklər, bu tərəfə bir qram da su keçməyəcək. Bu, çox ciddi strateji təhlükədir. Ona görə də su resurslarının qorunması, onlardan səmərəli istifadə, su mənbələrinin çirklənməsinə və qurumasına səbəb olan amillərin aradan qaldırılması vacibdir. Burada təkcə dövlətin yox, əhalinin də rolu son dərəcə əhəmiyyətlidir. Su israfçılığına yol verməməliyik.

2030-cu ilə qədər səhralaşma prosesinin güclənəcəyi, Bir çox çay və göllərin quruyacağı, su ehtiyatlarının azalacağı proqnozlaşdırılır. Son illərdə Kür və Araz çaylarının suyu minimuma qədər azalıb, bir çox kiçik çaylar və göllər quruyub. Xəzər dənizində də suyun səviyyəsi getdikcə aşağı düşür.

Ölkələr su qıtlığıyla bağlı müxtəlif tədbirlər görür, alternativ mənbələrdən istifadə edirlər. Çox sayda su anbarları yaradılır, artezianlar qurulur, bir yerdə artıq olan su mənbələrindən suyun az olduğu başqa ərazilərə kanallar çəkilir. Bir çox ölkələr dərinliklərdə yerləşən su hövzələrindən suyun çıxarılması üçün böyük layihələrin icrasına başlayır.

Eyni zamanda dəniz və okeanlardan götürülən sular duzsuzlaşdırılıb istifadə olunur. Bu proses kifayət qədər bahalı olsa da, qlobal su böhranından xilas olmağın alternativlərindən biridir. Azərbaycanda da pilot layihə kimi Xəzərin suyunu şirinləşdirmək üçün zavod yaradılıb. Amma bu suyun qiyməti digər mənbələrdən götürülən suya nisbətdə dəfələrlə baha başa gəlir. Dövlət başçısının su təsərrüfatının effektiv idarə edilməsi, su ehtiyatlarından səmərəli istifadə, yeni su mənbələrinin yaradılması ilə bağlı sərəncamları var. Çaylar üzərində 60-a yaxın su anbarının tikilməsi nəzərdə tutulub. Bir neçə belə su anbarı artıq tikilib.

İmkan olan yerlərdə artezianlar vasitəsilə yer təkindəki sulardan istifadə etmək olar. Suvarmada qənaətcil texnologiyalara keçmək, damcı və çiləmə suvarma sistemlərindən istifadəni stimullaşdırmaq lazımdır. Bu texnologiyaların vasitəsilə əkin sahələrini azı 3-4 dəfə az su ilə daha effektiv suvarmaq mümkündür.

Su itkilərinin bir hissəsi də ötürücü kanallarda itirilir. Azərbaycanda su kanallarının ümumi uzunluğu 50 min kilometrdən çoxdur. Bunun 90 faizindən çoxu da torpaq kanallarıdır ki, onlarla ötürülən su torpağın alt qatlarına hopur və təyinat nöqtələrinə az bir hissəsi gedib çatır. Hamısı olmasa da, mümkün qədərini beton kanallarla əvəzləmək lazımdır. Bəzi yerlərdə isə borulardan istifadə etmək olar.

Su təsərrüfatının idarəetməsində ciddi problemlər var. Dünya üzrə ən çox su itkisi olan ölkələrdən biriyik. Dünya norması 5-6 faiz olduğu halda qeyri-effektiv idarəetmə səbəbindən bizdə su itkisi 30-40-faizdir.

Keçən il Prezidentin Sərəncamı ilə Dövlət Su Ehtiyatları Agentliyi yaradıldı ki, su təsərrüfatı mərkəzləşmiş qaydada idarə olunsun. Agentlik düzgün nəzarət sistemi yarada bilsə, problemlərin səbəblərini araşdırıb aradan qaldırsa özümüzü qlobal su böhranından sığortalaya bilərik.

İşğaldan azad olunan ərazilərdəki böyük su ehtiyatlarına çıxışımız yarandı. Ölkənin su ehtiyatlarının 30 faizi Qarabağ zonasındadır. Düzgün istifadə edə bilsək, su kanalları vasitəsilə həmin su ehtiyatlarından digər rayonlara da su ötürmək olar. Su qıtlığı aqrar sektorun sıradan çıxmasına, iqtisadi böhrana səbəb ola bilər. Nə qədər ki gec deyil, bu istiqamətdə ciddi və sürətli tədbirlər görülməlidir.



***Tanınmış rusiyalı hərbi ekspert və publisist Vladislav Şurıgin “Caliber” analitik mərkəzində müsahibəsində ermənilərin azərbaycanlılara qarşı etnik nifrəti***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiyalı ekspert: “Moskva Ermənistana yox, Azərbaycan və Türkiyəyə üstünlük verir”

*Azərbaycanlı cərrahın Ermənistanda insanların həyatını necə xilas etməsi haqda Şurıginin xatirələri*

**- 35 il əvvəl Ermənistanda dağıdıcı zəlzələ baş verdi. Bildiyimizə görə, Vladislav Vladislavoviç, siz fəlakət zonasında olmusunuz və yəqin ki, xatırlayırsınız Azərbaycan da bu faciəyə biganə qalmayıb. Daha sonra bu faciə ilə bağlı “Zavtra” (Sabah) qəzetində yazdığınız xatirələrinizi bizimlə bölüşə bilərsinizmi?**

- Bəli, həqiqətən də hərbi jurnalist kimi Ermənistanda fəlakət zonasında olmuşam. Və mən Leninakan xəstəxanasında çalışan bir azərbaycanlı hərbi cərrahın yaralanan ermənilərə necə kömək etdiyinin şahidi oldum. Artıq o zaman ermənilərlə azərbaycanlılar arasında ciddi gərginlik yaranmışdı və yeri gəlmişkən, həmin azərbaycanlı cərrah mənə maraqlı bir hadisə danışmışdı. Onun sözlərinə görə, ayaqları sınmış yaşlı erməni onu əməliyyat edənin erməni deyil, azərbaycanlı olduğunu biləndən sonra birbaşa əməliyyat masasından tullanmaq istəyib.

**- Yəni, 1988-ci ilin dekabrında Ermənistanda anti-Azərbaycan isteriyası artıq tüğyan edirdi?**

- Deyə bilərəm ki, bəli, tam olaraq.

**- Erməni təbliğatı var gücü ilə azərbaycanlıların Ermənistandakı zəlzələnin nəticələrinin aradan qaldırılmasında iştirakı faktını təkzib etməyə çalışır. Özünüz xilasedicilər arasında azərbaycanlıları görmüsünüzmü?**

- Ermənistanda azərbaycanlı xilasedicilərin olduğu təyyarənin qəzaya uğramasından sonra Moskva onları ora göndərməmək qərarına gəldiyi üçün Spitakda mütəşəkkil qüvvə kimi azərbaycanlı yox idi. Amma çox güman ki, keçmiş İttifaqın başqa yerlərindən gələn xilasedicilər arasında azərbaycanlılar da olub.

**- Güman etmirsiniz ki, Ermənistana gedən azərbaycanlı xilasedicilərin olduğu təyyarə, ümumiyyətlə, pis hava şəraiti səbəbindən qəzaya uğramayıb?**

- Yox, güman vermirəm. Təyyarəni vurmaq mümkün deyildi. Daha doğrusu, bu, pis hava şəraiti ilə bağlı idi və pilotlar təəssüf ki, barometrik yüksəkliyə çata bilməyiblər.

**- Hər halda, Azərbaycanın bu xoşməramlı jesti Ermənistanda müsbət qarşılanmadı. Üstəlik, ermənilər indi də Rusiyaya qarşı qarayaxma nankorluqlarını nümayiş etdirməkdə davam edirlər. Sizcə, Ermənistan, nəhayət, tamamilə Qərbə üz tutacaq?**

- Bilirsiniz, mən Ermənistanın bütün hərəkətlərinə, fəaliyyətinə kifayət qədər laqeyd yanaşıram və anlayıram ki, o, indiki formada heç bir dəyəri ifadə etmir. Qərbə getmək onun hüququdur, lakin Ermənistanın sonrakı liderlərinin bu işi davam etdirəcəyinə əmin deyiləm. Ermənilər özlərini böyük bir Avropa ailəsinin bir hissəsi kimi hiss etmək istəyirlər və daim vurğulayırlar ki, onların Fransa və ABŞ-da nəhəng icmaları var, lakin iqtisadiyyatı olmayan bir ölkə üçün büllur körpülər tikmək mənasızdır. Ermənistanın yeganə çıxış yolu var- Azərbaycanla münasibətləri yaxşılaşdırmaq və “İpək Yolu” sisteminə, Türkiyə, Gürcüstan və Avropaya gedən transsərhəd nəqliyyat dəhlizlərinə inteqrasiya etməkdir.

**- Aİ-nin Ermənistandakı missiyası genişləndirilir. Bu İrəvana nə verir?**

- Nikol Paşinyan Aİ-dən müəyyən qədər pul alacağını gözləyir və görünür, Rusiyaya meydan oxuyaraq Qərblə rəqs etməyin ona qızıl yağışları yağdıracağına inanır. Amma Ermənistana Qərbin ehtiyacı olub-olmadığı açıq sualdır. Açığı, ən yaxşı halda Türkiyəyə qarşı əlaltı kimi. Amma Ermənistan Qərbə getsə, bu, bizim üçün böyük itki olmayacaq. Türkiyə və Azərbaycanla əlaqələri saxlamaq bizim üçün daha vacibdir.

**- Afrikadakı ciddi uğursuzluqlardan sonra Fransa gözünü Qafqaza dikdi. Bu bölgədə onu nə gözləyir?**

- Belə olan halda gündə 200 kq portağal yeməyə qadir olan bir fil haqqında deyim yadıma düşür. Bir fil yəqin ki, bu payı yeyərdi, bəs onu kim verərdi? Paris ən azı bir neçə əsrdir ki, ciddi mövqe tutduğu Afrikadan qovulur və əslində, heç kim onu Qafqaza buraxmayacaq. Ermənistanda mikroskopik mövcudluq Fransanın ən yaxşı halda öz qürurunu təmin edəcək və burada real təsir göstərə bilməyəcək. Bölgənin gələcəyini təyin edəcək 3 əsas oyunçu var-Rusiya, Türkiyə və Çin. Azərbaycan isə regional güc kimi tamamilə müstəqil siyasət yürüdən öz maraqları çərçivəsində bu 3 oyunçu arasında balansı qoruyacaq.

**- Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanması ehtimalını necə qiymətləndirirsiniz?**

- Hesab edirəm ki, bazarlıq predmeti olmadığı üçün bu ehtimal kifayət qədər yüksəkdir. Azərbaycan bütün ərazilərini geri aldı, Qarabağda hərbi xunta məğlub oldu. Belə bir deyim var: sülhə həmişə uduzan tərəf ilk imza atar və bildiyiniz kimi, bu, Ermənistandır.

***Tərcümə - Elçin Bayramlı***

# Ermənistanda da növbədənkənar seçkilər gözlənilir - SƏBƏBLƏR






***Erməni KİV-i: ”Paşinyan növbədənkənar seçkilərə getməklə əhalinin əhval-ruhiyyəsini yoxlamaq, müxalifətin əngəl törədə biləcək liderlərindən yaxa qurtarmaqla öz mövqelərini möhkəmləndirəcək”***

Ermənistan hakimiyyətinin dəhlizlərində baş nazir Nikol Paşinyanın “Yaranmış gərginliyi aradan qaldırmaq üçün” növbədənkənar seçkilərə getmək istədiyi barədə söz-söhbətlər getməkdədir. Ölkənin KİV-ləri isə bunu Nikol Paşinyanın bir anda bir neçə məsələni həll etmək qərarı ilə izah edir.

**”Əbədi görünən rəqiblərinə” növbəti dərs verməklə...”**

“Birincisi, mövcud böyük narazılığa baxmayaraq, o, növbəti dəfə öz hakimiyyətini legitimləşdirəcək. Həmçinin, növbədənkənar seçkilərə getməklə əhalinin əhval-ruhiyyəsini yoxlamaq, müxalifətin əngəl törədə biləcək liderlərindən yaxa qurtarmaqla öz mövqelərini möhkəmləndirəcək”.

Erməni KİV-i “islahatçı baş nazirin” növbədənkənar seçkilərə getməklə ölkədaxilindəki “əbədi görünən rəqiblərinə” növbəti dərs verməklə, güclü erməni diasporuna, habelə ölkə xaricindəki yeni sponsorlarına, o cümlədən dünyanın demokratik qüvvələrinə Ermənistanda güc mərkəzinin yerini göstərmək istəyi ilə izah edir.

**Paşinyan: ”Bakı iki ölkə liderləri arasında artıq razılaşdırılmış prinsipləri təsdiqləsə, yaxın gələcəkdə Azərbaycanla sülh sazişinin imzalanması çox realdır”**



Bu arada, Paşinyanın Bakı ilə sülh müqaviləsini imzalamaq marağında olması da növbədənkənar seçkilərə getmək şansını artırır. O bilir ki, Ermənistanın müxalif qüvvələri çaxnaşma yaratmağa cəhd edəcəklər. Lakin bunun müqabilində o, bildirib: ”Bakı iki ölkə liderləri arasında artıq razılaşdırılmış prinsipləri təsdiqləsə, yaxın gələcəkdə Azərbaycanla sülh sazişinin imzalanması çox realdır”.

”Əgər Azərbaycan bu prinsipləri təsdiq edərsə, o zaman yaxın gələcəkdə sülh sazişinin imzalanması çox realdır”, - deyə Paşinyan vurğulayıb.

Beləliklə, Ermənistanın da növbədənkənar seçkilərə getməsi ehtimalı bütövlükdə regionda dəyişikliklərin olacağı siqnalını da verməkdədir.

***Afət Tahirqızı***

SON SƏHİFƏ

SƏS

15 dekabr
2023-cü il

# İmmuniteti hansı təbii vasitələrlə gücləndirmək olar?



HƏKİM DANIŞDI

***"Bizim orqanizmə hansı qidaların lazım olduğunu bilmək sağlamlığımız və güclü immun sistemimiz üçün çox vacibdir. Daha güclü immun sisteminə sahib olmaq üçün bəzi qaydalara riayət etmək tövsiyə olunur. Bədən çəkisini nəzarətdə saxlamaq, yəni artıq çəki qazanmamaq, eyni zamanda sürətli bir şəkildə arıqlamaqdan çəkinmək lazımdır".***



Bu sözləri SİA-ya açıqlamasında terapevt Zakir Quliyev deyib. Z.Quliyev bədənin mayeyə olan ehtiyacı qədər su içməyi məsləhət görüb: "Əgər ürək-damar sisteminizdə və böyrəklərdə hər hansısa bir probleminiz varsa, içəcəyiniz mayenin miqdarını öz həkiminizlə və ya müalicə edən mütəxəssislə məsləhətləşin. Eyni zamanda, yuxu rejimi güclü immunitetin əsas şərtlərindən biridir. Aparılmış elmi araşdırmalar göstərir ki, keyfiyyətli yuxu ilə güclü immunitet arasında birbaşa əlaqə var".

"“Fast food”dan uzaq durun, çünki bu qidaların kaloriyası yüksək olmasına baxmayaraq immun sistemə çox da müsbət təsir göstərmir. Keyfiyyətli və balanslaşdırılmış qidaların. İmmun sistemini gücləndirmək üçün ən yaxşı üsullardan biri çoxlu meyvə-tərəvəz yemək və mövsümə uyğun təbii şirələr qəbul etməkdir. Ümumi gigiyenaya, əsasən də əllərin gigiyenasına diqqət yetirmək vacibdir. Belə ki, sadə şəxsi gigiyena qaydalarına riayət etmək sağlamlığın qorunmasına və möhkəmlənməsinə kömək edir.

Müntəzəm olaraq idmanla məşğul olmaq güclü immun sistemi üçün vacibdir. Elmi araşdırmalar göstərir ki, idman immunitet sistemini aktivləşdirir. Pis vərdişlərdən (tütünçəkmə və spirtli içkilərdən istifadə) mümkün qədər uzaq olmaq vacibdir. Əsəb və stressdən maksimum uzaq durmaq lazımdır. Bundan əlavə, vitamin D immun sisteminin stimullaşdırılmasında vacib rol oynayır. Vitamin D hüceyrə mikromühitində metabolik stresi azaldaraq orqanizmin təbii immunitetini dəstəkləyən bir vitamindir. Bədənin D vitamini sintezinə olan ehtiyacının 90%-i dəri tərəfindən günəş işığı ilə qarşılanır.

Günəş işığından başqa ayran, pendir, qatıq, bitki yağı, balıq və balıq məhsulları, qaraciyər, yumurta sarısı, göbələk D vitamininin ən əhəmiyyətli mənbələrindəndir. Həmçinin D vitamini xəstəliklərə səbəb olan virus və bakteriyalarla mübarizə aparır",- deyə o əlavə edib.

***Ləman***

# Qızılcaya qarşı hansı qabaqlayıcı tədbir görmək olar?

"Qızılca xəstəliyi yoluxucu virus infeksiyasıdır. Adətən uşaqlar arasında yayılsa da, qızılca ilə istənilən şəxs xəstələnə bilər. Qızılca infeksion xəstəliyinə yoluxan şəxslərdə ömürlük immunitet yaranır və onlar yenidən bu virusa yoluxmur". Bu sözləri SİA-ya açıqlamasında həkim infeksionist Adil Qeybulla deyib. Onun sözlərinə görə, qızılcaya qarşı vaksin olunmuş şəxslərdə isə yoluxma halları müşahidə edilə bilər: "Bu zaman isə vaksin sayəsində xəstəlik müddəti daha yüngül keçir.



Nəzərə almalıyıq ki, vaksinasiya bu gün xəstəlikdən qoruna bilmək üçün yeganə yoldur. Buna görə də UNİCEF, Ümumdünya Səhiyyə Təşkilatı milli peyvənd təqviminin tətbiq edilməsini bütün ölkələrə məsləhət görüb. Azərbaycan da 1990-cı illərin əvvəllərində buna qol çəkib. Bu gün də qızılca virusuna qarşı peyvənd olunmaq bizim milli təqvimimizdə göstərilir və iki dəfə peyvənd olunmaq gərəklidir.

Təəssüflər olsun ki, valideynlər övladlarının peyvənd olunmasından boyun qaçırırlar. Buna görə də bu gün qızılcaya yoluxma hallarının artmasında bu məsələnin payı çoxdur. Qızılcaya yoluxma halları yüksək temperatur, halsızlıq, zəifliklə başlayır, daha sonra bədəndə səpkilər üzə çıxır. Belə olduqda xəstə dərhal yataq rejiminə keçməlidir. İstənilən halda qızılca ilə mübarizənin ən effektiv yolunun vaksinasiya olduğunu bilmək lazımdır".

***Səbinə Hüseynli***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Süni qidalar insanların genetikasını zədələyir"

"Müasir dünyada süni qidaların artımı müşahidə edilir. Əvvəl 2-3 qidanın süni versiyasına rast gəlirdiksə, indi elə bir qida növü yoxdur ki, sünisi hazırlanmasın". Bu sözləri SİA-ya tibbi ekspert Rasif Bağırov deyib. Onun sözlərinə görə, bostan bitkiləri və meyvələr istisna olmaqla əksər qidaların sünisinə rast gəlirik: "Ət, yağ, düyü, süd və s. belə qidaların demək olar ki, əksəriyyətini süni formada hazırlaya bilirlər. Süni qidaların meydana gəlməsinin səbəblərindən biri də odur ki, Hindistan və Çin kimi böyük dövlətlər ərzaq məhsullarını çatdıra bilmir. Süni şəkildə qidalar yaradıb xalqa verirlər. Digər tərəfdən də qazanc əldə etmək istəyən işbazlar təbii qidaların sünisini yaradırlar. Süni qidaların istifadəsi və yaradılması xeyirli məqsəd üçün deyil".



EKSPERT İZAH ETDİ

Ekspert süni hazırlanan uşaq yeməklərindən də danışıb: "Bəzi uşaq yeməkləri var ki, sünidir. Təbii ki, ana südü olmayanda məcburiyyətdən uşaqlara həmin yeməkləri verirlər. İnsanlar buna məcbur olur. Təbii ana südü olmasa da, uşağın müəyyən inkişafı üçün lazımdır. Yəni, insanın həyatda qalmasına kömək edir. Ana südü elədir ki, onun vasitəsilə immun sistemi yaxşılaşır, lazım olan mineral və vitaminlər qəbul edilir. İlk 3 ay müddətində uşağı qoruyan ana südüdür. Lakin süni qidalar immun sisteminə təsir etmir. Süni qidalar ana südü qədər təsir göstərmir".

Rasif Bağırovun fikrincə, elə qidalar var ki, heç onu istehsal etmək olmur: "İnsan orqanizminə təbii qidalar süni qidalara nisbətən daha yaxşı təsir edir. Əldə etdiyimiz məlumatlara görə, son dövrlər Avropa ölkələrində süni qidaların istehsalı artırılıb. Bunun ciddi formada qarşısını almağa çalışırlar. Hətta insanlar özü də araşdırırlar və qarşılarına süni qidalar çıxdıqda müəyyən qurumlara müraciət edirlər. Nəticədə süni qidaların məişətə daxil olmasının ciddi şəkildə qarşısını almağa çalışırlar".

R.Bağırov vurğulayıb ki, süni qidalar insanların genetikasını zədələyir: "Müxtəlif gen xəstəliklərinin yaranmasına şərait yaradır. Bundan əlavə insan orqanziminin inkişafında müəyyən problemlər yaradır. İnsanların tez-tez ağır xəstəliklərə düçar olmasına səbəb də süni qidalardır. Təbii qidalara önəm vermək lazımdır. Orqanizm üçün faydalı olan qidalar təbii qidalardır. Çünki orqanizmimiz həmişə müəyyən molekulyar səviyyədə olan qidaları qəbul edir. İri molekullu məhsulları orqanizm qəbul etməkdə çətinlik çəkir. Süni qidalar zərərlidir. Heç lazım olan kalorini belə verə bilmir".

***L.Sərraf***


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**